**AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

**Əlyazması hüququnda**

**AYAZ İSMAYIL OĞLU ORUCOV**

# AZƏRBAYCAN RESPUBLIKASINDA SAHIBKARLIĞIN INKIŞAFININ VƏ ONUN SƏMƏRƏLILIYININ ARTIRILMASININ TƏŞKILATI-IQTISADI PROBLEMLƏRI

**5312.01 – Sahə iqtisadiyyatı**

**İqtisad üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2013**

Dissertasiya işi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** iqtisad elmləri doktoru, professor
**Vahid Tapdıq oğlu Novruzov**

**Rəsmi opponentlər:** AMEA-nın müxbir üzvü,
iqtisad elmləri doktoru, professor
**Əli Xudu oğlu Nuriyev**

iqtisad elmləri doktoru, professor
**Amil Məmmədəli oğlu Məhərrəmov**

iqtisad elmləri doktoru, professor
**Arif Şəkərəli oğlu Şəkərəliyev**

**Aparıcı təşkilat:** **AMEA-nın Elmi İnnovasiyalar Mərkəzi**

Müdafiə "28" fevral 2013-ci ildə saat $14^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasinin iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az.2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi 64, 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "25" yanvar 2013-ci ildə göndərilib.

**FD.04.013 birləşdirilmiş birdəfəlik dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**



# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Azərbaycanda real iqtisadiyyatın inkişafında və ölkənin sənaye və elmi-texniki potensialının bərpasında sahibkarlıq fəaliyyətinin oynaya biləcəyi rol və onun kifayət qədər səmərəli olmaması ilə şərtlənir.

Bazar transformasiyası və ölkə iqtisadiyyatının dayanıqlığının təmin edilməsi haqlı olaraq ölkədə bazar münasibətlərinin təkmilləşdirilməsi ilə əlaqələndirilir ki, bu da iqtisadi təşəbbüskarlığın və sahibkarlığın hər vasitə ilə inkişafı deməkdir. 28 May – Respublika günü münasibətilə təşkil olunmuş rəsmi qəbul zamanı (25 may 2012-ci il) Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, "Bu gün iqtisadi inkişaf templərinə görə Azərbaycan dünya miqyasında lider ölkədir. Beynəlxalq kredit agentlikləri böyük ölkələrin kredit reytinqlərini aşağı saldığı bir dövrdə, Azərbaycanın kredit reytinqləri qalxır. Azərbaycanda rəqabət qabiliyyətli şirkətlərin sayı artır. Ölkə iqtisadiyyatının şaxələndirilməsi demək olar ki, təmin edilibdir. Neft-qazdan asılılıq azalır. Özəl sektorun inkişafına böyük dəstək verilir. Hazırda iqtisadiyyatımızın 80 faizi özəl sektorda formalaşır".

Praktikada isə Azərbaycan iqtisadiyyatının sabitləşdirilməsi, onun inzibati-amirlik sisteminin onilliklərlə hökmranlığı və iqtisadiyyatın ilkin islahatlar mərhələsinin xətaları üzündən yaranmış ciddi struktur deformasiyaları nəticəsində baş vermiş dərin böhrandan çıxarılması son zamanlara kimi müxtəlif növ xammal və enerji daşıyıcılarının ixracı ilə əlaqələndirilirdi. İşsizliyin azalması, əhalinin həyat səviyyəsinin aşağı düşmə templərinin zəifləməsi, ölkənin valyuta ehtiyatlarının artması və s. ilə ifadə olunan bu cür sabitləşmənin nəticələrinin müəyyən sosial-iqtisadi əhəmiyyətinə baxmayaraq, ölkənin uzunmüddətli perspektivdə iqtisadiyyatın əsas yüksəliş vasitəsi kimi xammal və enerji daşıyıcılarının ixracına istiqamət götürməsi yanlış idi. Buna görə də hazırda ölkənin iqtisadi siyasətində prioritetlərin dəyişməsi məsələsi kəskin şəkildə ortaya çıxır. Azərbaycan iqtisadiyyatının balanslaşdırılmış və proporsional yüksəlişi üçün daxili bazarın tələblərini ödəmək və rəqabət qabiliyyətli mallar ixrac etmək iqtidarında olan qeyri-neft sektorunun və sahibkarlığın inkişafına böyük diqqət yetirilməlidir.

Özünün iqtisadi təbiətinə görə sahibkarlıq tam təsərrüfat dövriyyəsi – istehsal və mübadilə sahəsində yaranan imkanların gerçəkləşdirilməsi ilə bağlıdır, çünki son nəticədə mübadilə mərhələsində sahibkarlığın qarşısında açılan imkanların generatoru məhz əmtəə istehsalıdır. İqtisadiyyatda struktur tənasübsüzlüklərinin olması, eləcə də müasir Azərbaycan bazarının formalaşma mərhələsində qaçılmaz olan qeyri-mükəmməllikləri (müqavilə hü-

qunda və vergi qanunvericiliyində boşluqlar, bütöv informasiya məkanının olmaması, bazar infrastrukturunun çatışmazlıqları və s.) əsasən mübadilə sahəsində keçid iqtisadiyyatı üçün xarakterik olan sahibkarlıq təşəbbüslərinin göstərilməsinə yardım edir.

Bu mənada ölkəmiz də istisna deyildir. Azərbaycanda sahibkarlıq fəaliyyəti, ilk növbədə, ticarət və kredit-maliyyə sahəsində inkişaf etmişdir. Keçid dövrünün başlanğıcı üçün səciyyəvi olan yüksək inflyasiya səviyyəsi, ümumi iqtisadi qeyri-sabitlik, eləcə də kommersiya və kredit-maliyyə sahəsindəki dövriyyə müddətləri ilə müqayisədə sənayedə təsərrüfat dövriyyəsi müddətinin daha böyük olması obyektiv olaraq istehsal sahibkarlığının inkişafını ləngitmişdir. Digər tərəfdən, sahibkarlığın qanunvericilik bazasının qeyri-mükəmməlliyi biznesin kommersiya və maliyyə-kredit əməliyyatları ilə bağlı istiqamətlərinin kriminallaşmasına imkan yaratmışdır.

Beləliklə, dövlətin ilkin islahatlar mərhələsində iqtisadiyyatın idarə edilməsindən uzaqlaşması əsasən bazarın qeyri-mükəmməlliklərindən gəlir əldə etməyə istiqamətlənmiş, lakin bəzi hallarda bazarın ya süni şəkildə yaradılan, ya da xüsusi olaraq təkrar olunan mövcud qeyri-mükəmməlliklərini istismar edən sahibkarlıq strukturunun yaranmasına gətirib çıxarmışdır. Bu cür vəziyyət kütləvi şüurda sahibkarlıq haqqında dövlət və cəmiyyətə zərər vuran yarıkriminal fəaliyyət kimi təsəvvürün yaranmasına səbəb olmuşdur. Buna görə də ölkədə iqtisadi dəyişikliklərin səmərəli istehsal və bazar təsərrüfatı mexanizminin inkişafı ilə bir araya gələn sahibkarlıq formalarının dəstəklənməsinə yönəlmiş sistematik dövlət idarəetməsi (təsərrüfat əlaqələrinin hüquqi tənzimlənməsi, investisiya, vergi və kredit siyasəti və s. vasitəsilə) zərurəti meydana çıxmışdır.

Bununla əlaqədar olaraq ölkənin davamlı inkişafına, gələcəkdə isə onun dünya təsərrüfat sisteminin bərabərhüquqlu və effektiv subyektinə çevrilməsinə fəalyardım edəcək sahibkarlıq modelinin yaradılması aktuallaşır. Bu tələblərə tam həcmdə innovasiyalı istehsala istiqamətlənmiş sahibkarlıq cavab verir. Hazırda bu cür sahibkarlığın normal inkişafı və səmərəliliyinin yüksəldilməsi üçün kifayət qədər problemlər mövcuddur, ona görə də problemləri araşdırmaq məqsədi ilə tədqiqatın aparılması xüsusi aktuallıq kəsb edir.

**Problemin öyrənilməsi səviyyəsi.** Son illərdə həm yaxın və uzaq xaricdə, həm də Azərbaycanda alimlər və mütəxəssislər tərəfindən sahibkarlıq problemlərinin tədqiqinə marağın artması müşahidə olunur. Azərbaycanlı alimlər – akademiklər Z.Ə.Səmədzadə və A.A.Nadirov, habelə Ə.X.Nuriyev, A.Ş.Şəkərəliyev, A.B.Abbasov, İ.H.Alıyev, B.X.Ataşov, R.İ.Quliyev, İ.V.Əhmədov, R.B.Əliyev, Q.N.Manafov, Ə.X.Nuriyev,



V.T.Novruzov, S.V.Salahov, V. Niftullayev, İ.İbrahimov, Ə.Qasımov, Y.K.Kəlbiyev, Ə.Verdiyev və İ.Qarayev, həmçinin son illərdə iqtisad elmləri doktoru və ya fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş bir sıra dissertasiyaların müəllifləri, postsovet məkanı alimlərindən L.İ.Abalkin, S.V.Alekseyev, N.Q.Aqurbaş, N.T.Balabanov, A.O.Blinov, P.V.Zabelin və N.K.Moiseyeva, İ.N.Gerçikova, A.Y.Yudanov, M.B.Şepakin və bir çox başqaları təqdim olunan dissertasiya işi üçün metodoloji əsas rolunu oynayan sahibkarlıq nəzəriyyəsinin inkişafına sanballı töhfə vermişlər. Uzaq xaricin təmsilçiləri A.Smit, A.Marşal, F.Xayek, R.Kontelyon, İ.Ansoff, A.Xoskinq, Y.Şumpeter, D.K.Gelbreyt, P.Samuelson, C.Keyns, P.Xayne, K.Makkonnell və S.Bryu, A.A.Tompson və A.C.Striklend, M.E.Porter, İ.M.Kirsner, T.Müfti oğlu və başqa müəlliflərin sahibkarlıq probleminin nəzəri aspektlərinə dair tədqiqatları nəzərə alınmadan təqdim edilən bu dissertasiya işi bitkin ola bilməzdi.

Lakin sadalanan müəlliflərin tədqiqat işlərinin çox hissəsi sahibkarlığın ümumi və metodoloji əsaslarının, yaxud inkişafın konkret bir istiqamətinin işlənməsinə həsr olunmuşdur, əvəzində istehsal, mübadilə, xidmətlər və bank işi sahəsində sahibkarlığın formalaşması və inkişafı müstəqil iqtisadi problem kimi hələ də kifayət qədər tədqiq olunmamışdır. Bundan başqa, sahibkarlığın təşkilati-iqtisadi və hüquqi problemləri kifayət qədər işıqlandırılmamışdır, istehsal sahəsində sahibkarlıq üçün əlverişli mühitin yaradılmasının zəruri şərait və mexanizmləri, sahibkarlığın cəmiyyətdəki sosial proseslərə təsiri öyrənilməmişdir. Sahibkarlığın səmərəlilik problemləri isə ümumiyyətlə, tədqiqatçıların diqqətindən kənarda qalmışdır.

Ümumilikdə sahibkarlığın və xüsusi olaraq istehsal sahibkarlığının inkişafı probleminin aktuallıq və kəskinliyi, eləcə də ölkəmizdə sahibkarlığın səmərəliliyinə təsir göstərən makro və mikro iqtisadi mexanizmlərin əhəmiyyətinin kifayət qədər aydınlaşdırılmaması bu dissertasiya tədqiqatı mövzusunun seçimini təyin etmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Bu tədqiqatın başlıca məqsədi iqtisadiyyatın strateji perspektiv sahələrinin sürətli inkişafının xüsusi amili kimi, sahibkarlığın aktivləşdirilməsinə şərait yaradan təşkilati-iqtisadi mühitin formalaşdırılmasına konseptual yanaşmanın işlənib hazırlanması və onun səmərəliliyinin artırılmasının əsas istiqamətlərinin əsaslandırılmasıdır.

Tədqiqatın başlıca məqsədi aşağıdakı əsas vəzifələrin qoyulması və həlli zərurətini müəyyən etmişdir:

- sahibkarlığın sosial-iqtisadi mahiyyətini və əsas xarakteristikalarını açmaq;
- maddi istehsal sahəsində sahibkarlıq fəaliyyəti və onun spesifikasının

ümumi xarakteristikalarının təhlilini aparmaq;

- müasir mərhələdə istehsal sahibkarlığının problemlərini tədqiq etmək və ölkəmizdə bazar münasibətlərinin formalaşması və iqtisadiyyatın yüksəlməsinə onun təsirini açmaq;
- sahibkarlığın səmərəliliyinə yanaşmaları təhlil edən müqayisəli tədqiqatlar əsasında sahibkarlığa yardımın ən səmərəli xarici metodikalarının Azərbaycan şəraitində sahibkarlıq fəaliyyətinə uyğunlaşdırılmasının mümkünlüyünü qiymətləndirmək;
- sahibkarlığın inkişafı və istehsal risklərinə təsir göstərən ictimai-siyasi və təşkilati-iqtisadi mexanizmləri açıqlamaq;
- sahibkarlıq uğurunun əldə olunmasının firmadaxili şərtləri və sahibkarlığın səmərəliliyinin artırılması metodlarını aşkara çıxarmaq;
- sahibkarlıq fəaliyyətinin kadr təminatı məsələlərini nəzərdən keçirmək;
- sahibkarlıq menecmentinin səmərəliliyinin qiymətləndirilməsi metodologiyasını işləyib hazırlamaq;
- sahibkarlıq fəaliyyətinin səmərəliliyini şərtləndirən amilləri öyrənmək və bunun əsasında rəqabət mübarizəsinin zərurətini nəzərə almaqla, onun idarə olunması mexanizminin formalaşdırılmasında bu amillərin rolunu qiymətləndirmək;
- sahibkarlığın inkişafına yardıma görə məsuliyyət daşıyan orqanlar üçün sahibkarlığa yardım proqramlarının planlaşdırılması və həyata keçirilməsi, eləcə də nəticələrinin qiymətləndirilməsi ilə bağlı metodiki tövsiyələr vermək.

**Tədqiqat obyekti** Azərbaycan Respublikası iqtisadiyyatının qeyri-dövlət sektorudur.

**Tədqiqat predmeti** təsərrüfat sisteminin islahatları və inkişafı prosesində yaranan sosial-iqtisadi münasibətlər, sahibkarlığın səmərəliliyinin artırılması problemləridir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** kimi yerli və xarici alim və mütəxəssislərin Azərbaycan iqtisadiyyatının bazar islahatları, sahibkarlığın formalaşması və fəaliyyəti, elmi-texniki tərəqqi və sahibkarlıq fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin nəzəri və praktik məsələlərinə dair tədqiqatlarının nəticələri, habelə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin nəzəri irsi, Respublika Prezidentinin Sərənjamları, Fərmanları və Azərbayjan Respublikası Milli Məclisi tərəfindən qəbul olunan qanunlar təşkil edir. Əsas tədqiqat alətləri qismində sistem-struktur, sistem-funksional, amil və müqayisəli təhlil metodlarından istifadə olunmuş və varislik prinsipləri əsas götürülmüşdür.

**Tədqiqatın informasiya bazasını** sahibkarlıq fəaliyyətini tənzimləyən



qanunvericilik və normativ aktlar, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, İqtisadi İnkişaf Nazirliyi, Vergilər Nazirliyi, Mərkəzi Bankı və Maliyyə Nazirliyinin statistik məlumatları, sosioloji sorğuların nəticələri, müxtəlif səviyyəli elmi-nəzəri və elmi-praktik konfrans materialları, monoqrafik tədqiqatlar, dövri mətbuatda çıxan məqalələr təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi** iqtisadiyyatın strateji baxımdan perspektiv sahələrinin sürətli inkişafının mühüm amili kimi, sahibkarlıq mühitinin formalaşmasına konseptual yanaşmanın əsaslandırılması və onun səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətlərinin əsaslandırılmasından ibarətdir.

İşin əsas elmi yeniliklərii aşağıdakılardan ibarətdir:

- “sahibkarlıq” anlayışı innovasiyaya əsaslanan və onun əsasında əlavə gəlirin əldə olunması məqsədilə istehsal amillərini kombinə edən maddi istehsal sahəsində xüsusi iqtisadi fəaliyyət növü kimi dəqiqləşdirilir;
- sübut edilir ki, sahibkarlıq mühitinin inkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrdə istifadə olunan qurulma təcrübəsi ölkəmizdə metodoloji əsas kimi, bazar iqtisadiyyatının formalaşdırılmasının spesifikası nəzərə alınmaqla tətbiq edilə bilər;
- istehsal sahəsində sahibkarlığın səmərəliliyinin çoxamilli qiymətləndirilməsinə metodoloji yanaşma işlənib hazırlanmışdır;
- sahibkarlığın intensivliyinə, onun səmərəliliyinə və müşayiətedici risklərə təsir göstərən amillər aşkar olunmuş, eləcə də iqtisadiyyatın indiki inkişaf mərhələsində sahibkarlığın təsirinin qiymətləndirilməsi verilmişdir;
- sübut olunmuşdur ki, prinsipial iqtisadi səmərəli innovasiyalar sahibkarlığın sosial-iqtisadi fenomen kimi zəruri elementidir (struktur əlamətidir);
- göstərilmişdir ki, sahibkarlığın sosial səmərəliliyi üçün sosial yönümlü bazar mexanizmləri zəruridir, bu zaman həmin mexanizmlərin tənzimləyicisi və qurucusu rolunu açıq cəmiyyət prinsipləri əsasında qurulmuş dövlət öz üzərinə götürməlidir;
- sahibkarlıq fəaliyyətinin qarşısını alan amillərin aşkarlanmasını ehtiva edən, dövlət tərəfindən sahibkarlığın xarici mühitinin milli emal məhsulu istehsalının inkişafını stimullaşdıran vergi, tarif, maliyyə-kredit və investisiya siyasəti vasitəsilə tənzimlənməsi metodlarını müəyyən edən səmərəli sahibkarlıq şərtlərinin formalaşdırılması konsepsiyası işlənib hazırlanmışdır;
- maddi istehsal sahəsində sahibkarlığın iki təşkilati formasının (kiçik və korporativ) güclü və zəif tərəflərinin təhlili verilmişdir;
- sahibkarların ixtisas dərəcəsinin yüksəldilməsi ilə bağlı xarici təcrübənin öyrənilməsi əsasında onun yerli praktikada istifadəsinə dair tövsiyələr

verilmişdir;

- istehsal sahəsində işləyən sahibkarlıq təşkilatını idarə edən menecmentin səmərəliliyinin qiymətləndirilməsinin metodologiyası verilmişdir;

- sahibkarlığın səmərəliliyinin yüksəldilməsinin mühüm amili kimi, onun kadr potensialının keyfiyyət təkmilləşdirmələrinin istiqamətləri əsaslandırılmış, bazar mühitində sahibkarların ixtisas dərəcəsi ilə bağlı irəli sürülən tələblər formalaşdırılmış və bu tələblərə müvafiq olaraq, sahibkarlığın inkişafına kompleks yanaşma işlənib hazırlanmışdır;

- sübut edilmişdir ki, müasir rəqabət mexanizminin struktur-funksional təşkilinin əsaslandırılması sahibkarlığa səmərəli dövlət yardımı siyasətinin işlənib hazırlanmasına, onun rəqabət qabiliyyətinin yüksəldilməsi tədbirlərinin gerçəkləşdirilməsinə, Azərbaycanda yüksək səviyyədə inkişaf etmiş sahibkarlıq və rəqabət mühitinin yaradılmasına imkan yaradar;

- göstərilmişdir ki, rəqabət mübarizəsinin inkişafı şəraitində sahibkarlıq fəaliyyətinin səmərəli idarə edilməsinin əsası müəssisənin elmi cəhətdən əsaslandırılmış innovasiya siyasəti və müəssisənin ümumi idarəetmə sistemi çərçivəsində innovasiyaların tətbiqi texnologiyasıdır. Bu mənada, müəssisənin iki səviyyədə: müəssisə və ayrıca innovasiya layihəsi səviyyəsində innovasiya siyasətinin nəzərdən keçirilməsi məqsədəuyğun sayılır;

- göstərilmişdir ki, əhalinin sahibkarlığa ehtiyatlı (bəzən isə mənfi) münasibəti sahibkarlıq təşəbbüsünün inkişafını ləngidən məqamdır. Bu vəziyyəti dəyişmək üçün sahibkarlar könüllü əsasda cəmiyyətin sosial problemlərinin həllinin müəyyən hissəsini öz üzərinə götürməklə, sahibkarlığın ictimai statusunu yüksəltməlidirlər;

- müəssisənin fəaliyyətinin daxili monitorinqinin təşkilinə və onun daxili mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərini əsaslandırılmış şəkildə seçməyə imkan verən yeni elmi-metodiki yanaşma işlənib hazırlanmışdır.

**Dissertasiya tədqiqatının nəzəri və praktik əhəmiyyəti** bununla müəyyən edilir ki, onun metodoloji müddəaları sahibkarlıq nəzəriyyəsinə müəllifin konkret töhfəsi olaraq, istehsal sahibkarlığı kimi mühüm istiqaməti inkişaf etdirir və səmərəlilik probleminin nəzəri aspektlərini bazar şəraitində istehsal sahəsində sahibkarlıq fəaliyyəti ilə əlaqədə nəzərdən keçirir. Dissertasiyada əks olunan nəticələr və praktik tövsiyələr qanunvericilik və icra orqanları tərəfindən sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi və sahibkarlığın inkişafına kömək proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi, ölkənin strateji maraqları baxımından onun ən prioritet inkişaf istiqamətlərinin stimullaşdırılması zamanı istifadə oluna bilər. Bundan başqa, tədqiqatın nəticələri yüksək ixtisaslı sahibkarların hazırlanması üçün tədris proqramlarında istifadə oluna bilər.



**Tədqiqatın nəticələrinin nəşri və aprobasiyası.** Dissertasiyanın əsas müddəaları “Böhrandan sonrakı iqtisadiyyatda maliyyə resurslarının səmərəli idarə olunmasında şəffaflığın rolu” mövzusunda Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət komitəsi, Dövlət Neft Fondu, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Hesablama Palatası, Azərbaycan İqtisadçılar İttifaqı və Auditorlar Palatasının birgə təşkil etdikləri beynəlxalq elmi-praktik konfransda, “Azərbaycan Respublikası əhalisinin ərzaq məhsulları ilə davamlı təchizatının iqtisadi problemləri” mövzusunda Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun keçirdiyi elmi-praktik konfransda təqdim edilmişdir. Həmçinin, elmi cəhətdən əsaslandırılmış təkliflər və tövsiyələr praktik istifadə üçün Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Elmi-Tədqiqat İqtisadi İslahatlar İnstitutuna təqdim edilmiş və müsbət rəy alınmışdır (24.02.2010 tarixli 33/33-7/04 nömrəli məktub).

Dissertasiya işinin mövzusu üzrə ümumi həcmi 22,6 çap vərəqi həcmində olan elmi əsərlər çap edilmişdir.

**Dissertasiyanın işinin quruluşu və həcmi** tədqiqatın məntiqindən irəli gəlmişdir və giriş, beş fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi 268 səhifədən ibarətdir, statistik materiallar 21 cədvəl və 9 şəkildə əks etdirilmişdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti və s. göstərilmişdir.

**Dissertasiya işinin birinci fəsli** “Azərbaycanda sahibkarlıq: təşəkkülü və milli iqtisadiyyatin inkişafinda rolu” adlanır. Bu fəsildə sahibkarlıq fəaliyyətinin bazar münasibətlərinin ən səciyyəvi xüsusiyyətlərini özündə cəmləşdirməsi və onun bazar iqtisadiyyatının inkişafında əsas hərəkətverici qüvvə kimi əhəmiyyəti geniş şərh olunmuşdur.

Dissertasiya işində işgüzar davranış və sahibkarlıq fəaliyyəti ilə bağlı elmi-nəzəri baxışların tarixi inkişafının ayrı-ayrı dövrlərdə Amerika, Avropa, Asiya və eləjə də Azərbayjanın iqtisadçı alimlərinin əsərlərində müxtəlif səpkidə araşdırmasına xüsusi diqqət yetirilmiş, bazar iqtisadiyyatı sisteminin əsasını təşkil edən sahibkarlıq faəliyyəti və onun formalaşmasına təkan verən iqtisadi mühüm bir sıra tarixi inkişaf mərhələlərini keçməsi vurğulanmışdır.

Qeyd etmək lazımdır ki, Azərbayjanda sahibkarlıq fəaliyyəti mühitini

doğuran siyasi, iqtisa-hüquqi və beynəlxalq amillər birdən-birə formalaşmamışdır. Bu proses böyük bir ijtimai-iqtisadi sistemin dağıdılmasının nəticəsidir. Respublikamızda sahibkarlıq fəaliyyəti mühitinin yaradılmasına və onun hüquqi-iqtisadi bazasının formalaşmasına əsasən XX əsrin 90-jı illərindən başlamışdır.

İqtisadiyyat sahəsində strateji seçimin əsasını ümummilli lider Heydər Əliyevin hələ Azərbaycanda siyasi rəhbərliyə qayıdışının ilk dövründə söylədiyi bu tezis təşkil etmişdir: "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur". Ulu öndər inam və qətiyyətlə bildirirdi ki, "...bazar iqtisadiyyatının əsasında şəxsi mülkiyyət, özəl mülkiyyət və sahibkarlıq durur... Azərbaycanda iqtisadiyyatın və sosial sahənin inkişafı biznesin inkişafından asılıdır, özəl sektorun inkişafından asılıdır".

Sosial-iqtisadi islahatların başlıca strateji nəticəsi iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi, əhalinin yaradıcı iqtisadi fəallığının maksimum gerçəkləşdirilməsi əsasında həyat səviyyəsinin yaxşılaşdırılması olmalıdır. Ayrı-ayrı şəxslərin və ya kollektivlərin uzunmüddətli sistematik gəlir (mənfəət) əldə etməyə yönəlmiş, öz riski və öz məsuliyyəti altında həyata keçirdiyi təşəbbüskar iqtisadi fəaliyyəti olan sahibkarlığı inkişaf etdirmədən bu məqsədlərə nail olmaq mümkün deyildir. Məhz bu həqiqəti nəzərdə tutaraq, ümummilli lider Heydər Əliyev deyirdi ki, "Biz Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq və sahibkarlığın inkişaf etdirilməsi üçün bundan sonra lazım olan tədbirlərin həyata keçirilməsi ilə məşğul olacağıq".

Dünya təcrübəsi göstərir ki, sahibkarlıq iqtisadiyyatın uğurlu inkişafında nəzərəçarpacaq rol oynayır, çünki o:

- mülkiyyətçilərin, - "orta sinif" adlanan təbəqənin, - demokratik cəmiyyətdə siyasi və iqtisadi sabitliyin başlıca təminatının sayının artması;
- nisbətən az kapital məsrəfi ilə yeni iş yerlərinin yaranması;
- dövlət sektorunda və iri biznesdə sərbəstləşən işçilərin, eləcə də əhalinin sosial cəhətdən zəif qruplarının (əlillər, gənclər, qadınlar və s.) nümayəndələrinin işlə təminatı;
- iqtisadi cəhətdən aktiv əhalinin payının artması və bununla da vətəndaşların gəlirlərinin çoxalması, müxtəlif sosial qrupların rifahında qeyri-mütənasibliyin aradan qalxması;
- kiçik biznesin ilkin özünütəsdiq məktəbi olduğu ən fəal fərdlərin seçilməsi;
- texniki, texnoloji və təşkilati yeniliklərin, yeni layihə və elmi işləmələrin tətbiqi;



- iri sahibkarların inhisarının zəiflədilməsi yolu ilə rəqabət mühitinin yaranması;
- əvvəllər tətbiq edilməmiş maddi, əmək və maliyyə resurslarının yüksək istifadə səmərəliliyi və yüksək dövriyyə sürəti ilə dövriyyəyə daxil edilməsi;
- bazar konyunkturası və digər parametrlərinin dəyişməsinə operativ reaksiya hesabına iqtisadiyyata zəruri çevikliyin verilməsinə gətirib çıxarır.

Sahibkarlıq fenomeni ondan ibarətdir ki, sahibkar bilərəkdən elə özünün yaratdığı yeni iqtisadi vəziyyətlə bağlı riskə gedir. Buna görə də bazara keçid şəraitində sahibkarlığın başlıca rolu iqtisadi qeyri-mütənasibliklərin aradan qaldırılması və yaradıcılıq proseslərinin aktivləşdirilməsindən ibarətdir.

Rəqabət qabiliyyətli sahibkarlığın bazar münasibətlərinin təkamül dinamikasında rolunu təyin edən digər amillər arasında aşağıdakıları fərqləndirmək olar:

***1. Sahibkarlıq iqtisadiyyatın strukturunun dəyişdirilməsi üçün bir vasitə rolunu oynayır.*** Sahibkarlar üçün əsas fəaliyyət motivi mənfəət əldə etmək imkanıdır. Kütləvi məhsulun istehsalında ixtisaslaşan iri müəssisələr, bir qayda olaraq, bir bazar sektorunda fəaliyyət göstərir, buna görə də sektorlararası məkan yaranmış boşluqları mobil şəkildə dolduran sahibkarlar tərəfindən tutulur. Ölkədə sahibkarlıq aşağı səviyyədə olduğu halda sektorlararası boşluqlar ya defisit mənbəyi olaraq qalacaq, ya da idxal malları ilə doldurulacaq. Buna görə sahibkarlığın vəzifəsi iqtisadiyyatın tamlığını təmin etməkdir.

Azərbaycanda sahibkarlığın formalaşması prosesi ümumilikdə və o cümlədən istehsal sahəsində mürəkkəb və ziddiyyətli xarakterə malikdir. Buna baxmayaraq, istehsal sahibkarlığı bazar şəraitində tədricən nəzərəçarpacaq fəaliyyət sahəsinə çevrilir, sahibkarlar isə Azərbaycan cəmiyyəti üçün yeni təsərrüfat subyekti tipi kimi özünü təsdiq edir. Bunun nəticəsində onun inkişafı və sosial-iqtisadi səmərəliliyinin artırılması üçün ilkin şərtlərin yaradılmasına nəinki yaxın, həm də daha uzaq perspektivdə xüsusi diqqət yetirilməlidir.

***2. Sahibkarlığın inkişafı yeniliklər üçün aktiv mühit yaradır.*** Rəqabət -- müəssisə və firmaları yeni texnika və texnologiya tətbiq etməklə, istehsal olunan məhsulun çeşidlərini daha tez yeniləməyə sövq edir. Bu, innovativ fəaliyyətin genişlənməsinə yardım edir ki, bu da ölkəmizdə sahibkarlığın müasir xüsusiyyətidir.

***3. Sahibkarlıq iqtisadi inkişafın katalizatorudur.*** Bu özünəməxsus sürətləndirici iqtisadiyyatda struktur yenidənqurmasına, istehsalın və xid-

mətlərin həcminin artması, investisiya fəaliyyətinin stimullaşdırılması, tələb və təklifin səviyyəsinin yüksəlməsi, bütövlükdə milli iqtisadiyyatın inkişaf templərinin sürətlənməsinə əhəmiyyətli təsir göstərir.

***4. Sahibkarlığın inkişafı – fərdiləşdirilmiş nemətlərin yaradılmasının yeganə təmin olunması imkanıdır.*** Yalnız çevik sahibkarlıq müəssisələri istehlakçıların demoqrafik, milli, regional, sosio-mədəni və digər xüsusiyyətlərini nəzərə almaqla, fərdi məhsul bazarının mənimsənilməsi problemini həll edə bilər.

***5. Sahibkarlıq bütün resurslardan qənaətlə və səmərəli istifadə olunmasına yardım edir.*** Sahibkarın fəaliyyəti təsərrüfat riski ilə sıx bağlıdır. Məhz bu hal ehtiyatlara qənaətin güclü stimulu kimi xidmət edir, sahibkardan layihələrin gəlirliliyinin detallı təhlilini, investisiyalara, resursların səmərəli istifadəsinə, işçi qüvvəsinin cəlb edilməsinə məsuliyyətli yanaşma tələb edir.

***6. Sahibkarlıq yüksək məhsuldar əməyə güclü təsir stimullarını təmin edir.*** Əksər hallarda şəxsi biznesi olan adamlar işə götürülmüş işçilərə nisbətən keyfiyyətli və məhsuldar əməkdə daha maraqlıdırlar. Sahibkarlar və onların ailələri, bir qayda olaraq, başqa heç kəsin razılaşmayacağı yüksək yük və ağır iş şəraitini könüllü surətdə öhdələrinə götürürlər. Buna görə də sahibkarlıq sektorunda əməyin məhsuldarlığı çox zaman iri müəssisələrdəki bu göstəricini dəfələrlə üstələyir. Şəxsi qazancın əldə olunması üçün bu cür psixoloji azad əmək fenomeni ümumilikdə iqtisadiyyat üçün daha çox faydanı təmin edir.

***7. Sahibkarı xarici bazarların mənimsənməsində lider adlandırmaq olar.*** Sahibkarlar iqtisadi agentlərin ən mobil və əməyin nəticələrində maraqlı hissəsi kimi, özlərini xarici iqtisadi fəaliyyətin effektiv istiqamətlərinin "kəşfiyyatçısı" qismində təsdiq etmişlər. Son illərdə "alverçilər" tərəfindən açılmış xarici bazarlara aparan "cığırları" hal-hazırda iri sahibkarlıq obyektləri mənimsəməkdədirlər.

***8. Sahibkarlıq – yeni iqtisadiyyat sahələrinin formalaşdırılmasında liderdir.***

İnformasiya cəmiyyətinə keçid sahibkarlığın səmərəliliyini kəskin şəkildə artırmağa imkan verir. Bundan başqa, sahibkarlıq informasiyalaşma prosesinə fəal şəkildə qoşulmuşdur və bu istiqamətdə ön mövqeləri inamla əlində saxlayır.

Fikrimizcə, Azərbaycan iqtisadiyyatının inkişafında sahibkarlığın rolunun artırılması üçün sahibkarların inkişafına və uğurlu işinə mane olan aşağıdakı əsas baryerlərin aradan qaldırılması zəruridir:

1. Sahibkarlığın institusional fəaliyyət mühitinin problemləri, o cümlədən: sahibkarlıq sektoru müəssisələrinin qeyri-rasional yaradılması və ləğvi prosedurları; dayanıqsız vergitutma sistemi; mürəkkəb sertifikatlaşdırma proseduru; sahibkarlığın inkişafı infrastrukturunun yetərli olmaması;

2. Sahibkarlıq müəssisələrinin bələdiyyə orqanları və məmurlarla qarşılıqlı münasibəti;

3. Sahibkarların maliyyə-kredit müəssisələri ilə qarşılıqlı münasibəti: səmərəli kreditləşdirmə sisteminin olmaması;

4. "Kölgə iqtisadiyyatı" və korrupsiyanın təsiri;

5. İnformasiya problemləri;

6. Sahibkarla cəmiyyətin qarşılıqlı münasibətləri: cəmiyyətin sahibkarlara, onların məhsuluna inamsızlığı; sahibkarlar tərəfindən cəmiyyətin maraqlarına etinasızlıq.

Milli iqtisadiyyatın inkişafında sahibkarlığın böyük, hətta lider rolunu nəzərə alaraq, habelə dövlət, cəmiyyət və sahibkarların maraqlarını nəzərə alan və uyğunlaşdıran iqtisadi dövlət strategiyasının prioritet vəzifələrindən çıxış edərək, Azərbaycan Respublikasında istehsal sahibkarlığının aşağıdakı perspektiv inkişaf istiqamətlərini qeyd etmək olar:

- rəqabət qabiliyyətli elmtutumlu məhsulun buraxılması və innovasiya yönümlü yeni istehsalatların yaradılmasını təşkil etmək iqtidarında olan istehsalatların inkişaf etdirilməsi;
- innovasiyaların işlənib hazırlanması, tətbiqi və yayılmasını təmin edən ixtisaslaşdırılmış strukturların təşkil edilməsi;
- uzunmüddətli investisiya mənbələri və kanallarının formalaşdırılması;
- innovasiya texnologiyaları əsasında yüksək emal dərəcəsinə malik rəqabət qabiliyyətli məhsulun istehsalı;
- yerli məhsulun xarici bazarlara çıxarılması;
- maddi istehsal sahəsində sahibkarlıq strukturlarının perspektiv idarəetmə sistemlərinin işlənib hazırlanması və tətbiqi;
- innovasiya işləmələri və istehsalı üçün informasiya təminatı sistemlərinin inkişaf etdirilməsi;
- "yeni iqtisadiyyat" sahələrinin formalaşdırılmasında iştirak.

Azərbaycanda biznes və sahibkarlığın təşəkkülünün tədqiqat işində təqdim olunan dövrləşdirilməsi yalnız müxtəlif mərhələlərdə bu prosesin inkişafını təyin edən amillərdən asılı olaraq, onun əsas xüsusiyyətlərini fərqləndirməyə deyil, həm də birinci və ikinci "dalğa" sahibkarlıq qruplarının nümayəndələrini xarakterizə edən bəzi fərqləndirici əlamətləri formalaşdırmağa imkan verir. Bu, yalnız nəzəriyyə deyil, həm də praktik baxımdan maraq doğurur, çünki sahibkarlığa səmərəli yardım və inkişaf siyasətinin işlənib hazırlanması üçün əsas kimi xidmət etməlidir. Sahibkarlığın fərqlən-

dirici əlamətlərinin formalaşdırılmasında başlıca rolu sahibkarlığın yarandığı sosial-iqtisadi mühit oynamışdır. Bütün fərqləndirilmiş qruplar sahibkarlığa müraciət etmək üçün müxtəlif sosial-iqtisadi motivasiyaya malik olmuşdur. Öz fəaliyyətini ilkin kapitalın əsasən dövlət mülkiyyətinin bölüşdürülməsi və mənimsənilməsi yolu ilə toplanması baş verən dövrdə başlamış "birinci dalğa" nümayəndələri üçün başlıca məqsəd "bərəkəti olmayan pullar"ın tez əldə olunması idi. Dövlət mülkiyyətinə çıxışı olan "birinci dalğa" sahibkarlarının əksəriyyəti tez və çox zaman cəmiyyət və dövlətin zərərinə olaraq, sosial-iqtisadi yerlərini tutaraq, buradakı şərait və işgüzar etikanı uzun müddətə müəyyən etmişdir.

"İkinci dalğa" sahibkarları artıq başa düşürdü ki, gec-tez spekulyativ kapital dövrünün sonu çatacaq. Buna görə də onlar öz səylərini uzunmüddətli kapital qoyuluşlu sahibkarlığa yönəldərək istehsal sahəsində fəaliyyətə başlayırlar. Onlar üçün "kapital qoyuluşu" anlayışı "birinci dalğa" təmsilçilərində rast gəlindiyi kimi, yalnız müəssisənin alınması ilə məhdudlaşmır. Sonrakı illərin sosial-iqtisadi prosesləri (iqtisadiyyatın yüksək inkişaf tempi, islahatların həyata keçirilməsinin sosial fonunun yaxşılaşdırılması, daha ehtiyatlı pul-kredit siyasəti, ödəniş balansının yaxşılaşdırılması, sahibkarların yeni təsərrüfat şəraitinə adaptasiyası və s.) iqtisadiyyatın bütün sahələrində işgüzar aktivliyin canlanmasına və iqtisadi agentlərin motivasiyasında müəyyən irəliləyişlərə səbəb olmuşdur. Sahibkarlıq mühitində dəyərlərin yenidən qiymətləndirilməsi baş vermişdir.

Azərbaycanda sahibkarlığın inkişaf mərhələlərinin tədqiqi göstərir ki, Azərbaycanda sahibkarlığın inkişafını bütün postsovet dövrü ərzində şərti olaraq aşağıdakı mərhələlərə bölmək olar (cədvəl 1):

Birinci mərhələ -- 1993-cü ilə qədərki dövr (tənəzzül dövrü)

İkinci mərhələ -- 1993-2002-ci illər (islahatlar dövrü)

Üçüncü mərhələ -- 2002-ci ildən sonrakı dövr (inkişaf dövrü)

Ölkədə sahibkarlığın inkişafının aktivləşdirilməsi, sosial-iqtisadi problemlərin həllində özəl sektorun rolunun gücləndirilməsi, onun yerli iqtisadiyyatın inkişaf tələblərinə artan müvafiqliyi, bu sektora dövlət dəstəyinin çərçivələri və ünvanlar şəbəkəsinin genişləndirilməsi regionlarda mövcud olan sahibkarlıq potensialının gerçəkləşdirilməsini tələb edirdi. Bu mənada, "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" çərçivəsində orta və kiçik biznesin inkişafı tədbirlərinin sistemləşdirilməsi sahibkarlığın inkişafında mühüm rol oynamışdır.

Cədvəl 1.

Azərbaycan Respublikasında sahibkarlığın inkişaf mərhələləri



| Mərhələ- lər | | Sahibkarlığın inkişaf mərhələləri | | |
|---|---|---|---|---|
| | | Xüsusiyyətlər | Nəticə | Tələblər |
| 1993-cü ilə qədərki dövr | | • tətbiqi yolunda maneələr; • epizodik hallarda keçirilən tədbirlərdə sistemləşdirmənin olmaması. | • inkişaf səviyyəsi göstəricilərinin aşağı düşməsi; • maliyyə və istehsal sahələrində qeyri-sabitlik. | • bazar iqtisadiyyatına yönəlmiş sistemli islahatlara start verilməsi zərurəti: - özəlləşdirmənin tətbiqi; - dövlət dəstəyi sisteminin formalaşdırılması, sahibkarlığın təşəkkülü. |
| 1993-2002-ci illər | 1993-1996-cı illər | • islahatların həyata keçirilməsi üçün zəruri şəraitin təmin edilməsi; • siyasi və makroiqtisadi sabitliyin əldə olunması; • sahibkarlığın formalaşdırılması üzrə ilkin tədbirlər. | •ÜDM-in həcminin azalmasının qarşısının alınması; • inflyasiyanın minimal səviyyəsinin təmin edilməsi. | - formalaşdırılmış prinsiplər əsasında islahatların həyata keçirilməsinin intensivliyi. |
| 1993-2002-ci illər | 1996-2002-ci illər | •sahibkarlığın inkişafının dövlət müdafiəsi sisteminin formalaşdırılması; •özəlləşdirmə; • idarəetmədə struktur islahatları. | • əsas makroiqtisadi göstəricilərin artım dinamikası; • sahibkarlıq subyektlərinin sayının dinamik artımı; • xarici investisiyaların axını. | - ölkənin potensialını daha dolğun reallaşdırmaq məqsədilə sahibkarlıq sektorunda sahə, regional, texnoloji dəyişikliklər baxımından struktur dəyişikliklərinin həyata keçirilməsi. |
| 2002-ci ildən sonrakı dövr | | • sahibkarlığın dövlət müdafiəsi sistemində köklü dəyişikliklər: - maliyyə təminatı; - dövlət tənzimlənməsi; - infrastruktur; - hüquqların müdafiəsi. | • istehsal yönümlü sahibkarlığın inkişaf tendensiyası; • regionlarda işgüzar fəaliyyətin fəallaşdırılması; • sahibkarlığın cəmiyyətdə konsolidasiyası. | • məşğulluğun təmin edilməsi; • regional potensialın reallaşdırılması: - sənayedə; - aqrar sektorunda; - turizmdə. • ixrac potensialının reallaşdırılması; • innovasiya sahibkarlığının formalaşdırılması və inkişafı. |

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" regionların infrastrukturunun inkişafı,

maddi təminat səviyyəsinin yüksəlməsi, qeyri-neft sektorunun və sosial sahələrin inkişafı, məşğulluq probleminin həlli və bunun nəticəsi olaraq, ölkə əhalisinin rifahının yüksəldilməsi üzrə dövlət siyasətinin başlıca vektoru kimi çıxış etmişdir. Makroiqtisadi sabitliyin, dinamik inkişafın təmin edilməsi siyasətinin uğurla həyata keçirilməsi həmin tədbirlərin iqtisadi regionlar miqyasında həyata keçirilməsi üçün əlverişli şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, sadalanan dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsində həlledici rolu özəl sektor oynamışdır və oynayır ki, bu da məqsədyönlü siyasət nəticəsində biznes sferasının səmərəliliyinin yüksəldilməsi ilə əlaqədardır.

Bu mühüm strateji dövlət sənədlərinin gerçəkləşdirilməsi ölkədə sahibkarlığın inkişafında mühüm rol oynamaqla, həmin sahəni tənzimləyən prosedurların və qanun tələblərinin əhəmiyyətli dərəcədə liberallaşdırılmasına, vergi yükünün azaldılmasına xidmət etmişdir. Sahibkarların fəaliyyətinə müdaxilə halları xeyli dərəcədə məhdudlaşmış, onların hüquqlarının müdafiəsi sistemi təkmilləşdirilmiş, dövlət-sahibkar münasibətləri, eləcə də iş adamlarının beynəlxalq əməkdaşlığı inkişaf etmişdir.

Azərbaycanda sahibkarlığın formalaşmasının mühüm xüsusiyyətlərindən biri iqtisadiyyatın və bazar təsərrüfat mexanizminin formalaşması üzrə iqtisadi islahatların aparıldığı ilk illərdən onun bir sıra amillər nəticəsində artmaqda olan regional diferensiasiyasını şərtləndirmiş spesifikası ilə bağlıdır.

Birincisi, sahibkarlığın formalaşması prosesinin regional diferensiasiyası onunla şərtləndirilirdi ki, iqtisadiyyatda islahatların başlanğıcında regionlar müxtəlif sahibkarlıq potensialına və sahibkarlığın inkişafının müxtəlif resurs-təkrar istehsal imkanlarına malik idi. Bu fərqlər əsasən onilliklər ərzində nizamlanmış kooperasiya-təsərrüfat əlaqələrinə əsaslanan sovet iqtisadiyyatının sahə və regional ixtisaslaşmasının nəticəsi olmuşdur. Bu əlaqələrin qırılması üzündən yaxın xaricdən – keçmiş sovet respublikalarından xammal, material, komplektləşdirici məmulatların göndərilməsinin kəskin şəkildə azalması nəinki maliyyə, investisiya və əmtəə axınlarının ərazi istiqamətinin dəyişdirilməsini tələb etmiş, həm də formalaşan bazarların regional diferensiasiyasının güclənməsinə təkan vermişdir.

İkincisi, regional diferensiasiyanın güclənməsində, həmçinin, keçmiş İttifaqın vahid iqtisadi məkanının dağılmasından sonra özünü aydın büruzə vermiş regional inhisarçılıq da az rol oynamamışdır.

Üçüncüsü, ümumittifaq iqtisadi məkanının parçalanması zaman baxımından praktik olaraq ixtisaslaşma və kooperasiya prinsiplərinə əsaslanan təsərrüfat əlaqələrinin qırılması ilə üst-üstə düşdü. Azərbaycanın bir çox



xammal və avadanlıq növlərinə olan tələbatı demək olar ki, bütünlüklə bu əlaqələr hesabına təmin olunurdu. Eyni zamanda, Azərbaycanın bir çox məhsul istehsalçıları ənənəvi satış bazarlarını itirdi.

Dördüncüsü, sahibkarlığın formalaşdırılma, vəziyyət və dinamikasında, onun effektivliyində təyinedici rolu ödəniş qabiliyyətli tələbin vəziyyəti oynayır. Azərbaycanda sahibkarlığın təşəkkül xüsusiyyəti ondan ibarətdir ki, bu, ödəniş qabiliyyətli istehlakçı tələbinin səviyyəsinə görə regionların nəzərəçarpacaq diferensiasiyası fonunda formalaşmışdır.

Beşincisi, sahibkarlığın formalaşması prosesinin regional diferensiasiyasının güclənməsi regionların sosial-iqtisadi inkişaf səviyyəsi, maddi-texniki bazası, inkişaf dərəcəsi və infrastruktur kompleksi, fond, əmtəə və digər bazarların əlyetərliyi, iqlim və demoqrafik amillər, mədəniyyət və təhsil səviyyəsi və s. üzrə artan diferensiasiyası ilə kifayət qədər şərtlənmişdir.

Altıncısı, regional diferensiasiyanın güclənməsinə burada aparılan sosial-iqtisadi siyasətdə, əhali və yerli hakimiyyət orqanlarının sahibkarlığa münasibətində fərqlər imkan yaratmışdır.

Qeyd etmək lazımdır ki, sahibkarlığın inkişaf etmiş ölkələrin iqtisadi həyatında mühüm rolu həm də onunla təyin edilir ki, iqtisdaiyyatın bu sektorunda müəssisələrin əksəriyyəti fəaliyyət göstərir, iqtisadi aktiv əhalinin çox hissəsi cəmləşib və ümumi daxili məhsulun yarısından üçdə ikisinə qədəri istehsal olunur ki, bu da işlək dövlət tənzimlənməsi sisteminin yaradılmasını və onun inkişafına yardım göstərilməsini şərtləndirmişdir. Xüsusi olaraq, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə iqtisadiyyatın sahibkarlıq sektoru ÜDM-in 20%-dən çoxunu, dövlət büdcəsinə bütün daxilolmaların 50%-ə qədərini verir, iş yerlərinin ümumi sayının 70%-dən çoxunu təmin edir. Elə Azərbayjan Respublikasında təkjə ÜDM-də qeyri-dövlət sektorunun payını, habelə iqtisadiyyatda məşğul olan əhalinin mülkiyyət növləri üzrə bölgüsünü ifadə edən rəqəmlər də bu mənada deyilən fikrə tam sübutdur (cədvəl 2 və 3).

Apardığımız tədqiqatlar göstərir ki, Azərbaycanda son dövrdə ÜDM istehsalında qeyri-dövlət bölməsinin xüsusi çəkisi sürətlə artmışdır. Bu isə respublikada aparılan siyasət, mövcud olan siyasi, iqtisadi, sosialoji, psixoloji mühit, xarici ölkələrlə iqtisadi əlaqələrin səviyyəsi, sahibkarlıqla bağlı dövlət siyasətinin xarakteri, istehsal, sosial və bazar infrastrukturunun səviyyəsi ilə sıx bağlıdır.

Respublikamızda sahibkarlıq fəaliyytəinin inkişafı sahəsində aparılan uğurlu islahatların nəticəsi olaraq mülkiyyət mənsubiyytəinə görə qeyri-dövlət bölməsində məşğul olan əhalinin sayı durmadan artır (cədvəl 3).

Cədvəl 2

Ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı (faizlə)

| Göstəricilər | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|
| Ümmi daxili məhsul, o cümlədən: | 70,8 | 77,8 | 81,0 | 84,0 | 84,5 | 81,2 | 81,7 |
| Sənaye | 48,4 | 84,5 | 87,5 | 90,3 | 89,9 | 85,9 | 87,4 |
| Tikinti | 63,5 | 90,4 | 81,8 | 77,3 | 87,0 | 76,1 | 72,0 |
| Kənd təsərrüfatı | 99,0 | 97,8 | 96,9 | 99,4 | 99,0 | 99,2 | 99,7 |
| Ticarət və xidmətlər | 89,3 | 97,8 | 99,3 | 99,0 | 99,1 | 99,0 | 99,2 |
| Nəqliyyat | 62,6 | 37,5 | 46,1 | 76,8 | 82,0 | 75,4 | 75,3 |
| Rabitə | 57,8 | 80,2 | 79,6 | 80,3 | 72,9 | 80,4 | 78,6 |
| Sosial və sair xidmətlər | 78,8 | 31,8 | 43,8 | 40,3 | 31,7 | 48,8 | 47,0 |

Cədvəl 3

İqtisadiyyatda məşğul olan əhalinin mülkiyyət növləri üzrə bölgüsü (min nəfər)

| Göstəricilər | 2000 | 2005 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|
| İqtisadiyyatda məşğul olanlar, O cümlədən mülkiyyət formaları üzrə | | | | | |
| dövət | 1278,2 | 1229,8 | 1244,4 | 1149,7 | 1142,7 |
| qeyri-dövlət o cümlədən: | 2426,3 | 2638,9 | 2866,9 | 2968,3 | 3186,4 |
| Xüsusi* | 1710,8 | 1843,5 | 2043,8 | 2159,1 | 2174,8 |
| bələdiyyə | - | 17,7 | 11,7 | 10,6 | 8,0 |
| Xarici investisiyalı və birgə müəssisələr | 35,1 | 59,7 | 66,2 | 62,0 | 61,3 |
| Dinə xidmət edən şəxslər | 35,0 | 30,8 | 30,4 | 30,1 | 29,5 |
| Sərbəst məşğul əhali | 645,4 | 687,2 | 714,8 | 706,5 | 912,8 |

* Bu ad altında mülkiyyət hüququ dövlətə və bələdiyyəyə tam məxsus olmayan yerli müəssisələrin, təşkilatların və fiziki şəxslərin mülkiyyəti nəzərdə tutulur.

Cədvəldən göründüyü kimi qeyri-dövlət bölməsində çalışanların sayı dövlət bölməsində çalışanlardan 2,8 dəfə çoxdur. Bu isə sənaye, kənd təsərrüfatı, tikinti, ticarət, ictimai iaşə, nəqliyyat, turizm poliqrafiya və s.



sahələrdə fəaliyyət göstərən sahibkarlarla bağlıdır.

Qeyd etmək lazımdır ki, müasir elmi-texniki tərəqqi ilə bağlı proseslər respublikada kiçik və orta sahibkarlığın bu növü ilə məşğul olmaq istəyənlərin sayı xeyli artmışdır.

Bu məqsədlə Azərbaycanda sahibkarlığın geniş vüsət alması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri sayırıq:

- ölkə ərazisində bütün fəaliyyət sahələrində milli sahibkarlığın tarazlı inkişafının təmin edilməsi;
- respublikada istehsal yönümlü sahələrdə sahibkarlıq fəaliyyətinə daha çox diqqət yetirilməsi və investisiya qoyuluşundan daha səmərəli istifadə olunması;
- ölkədə milli sahibkarlıq fəaliyyətini daha da genişləndirmək məgsədilə rayonlararası servis xidmətinin yaradılması və bazar infrastrukturunun rolunun daha da artırılması;
- sahibkarların müxtəlif risklərlə bağlı uğursuzluglarını maliyyələşdirən və həvəsləndirən təminatlı maliyyə təşkilatlarının formalaşması;
- istehsal fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektlərinə güzəştli və müddətli vergi sisteminin tətbiqində üstünlük verilməsi;
- respublikada sahibkarlıq strategiyasının vaxtında və tarazlı qaydada həyata keçirilməsi üçün kredit və investisiya qoyuluşunun üstünlüklərindən istifadə olunması, xüsusilə, güzəştli və uzunmüddətli bank kreditlərinin rolunun artırılması;
- dövlət sahibkarlığı ilə qeyri-dövlət sahibkarlıq fəaliyyətini uzlaşdıran və garşılıqlı əlaqə yaradan xüsusi sahibkarlıq konsepsiyası və ya proqramının hazırlanması;
- sahibkarlığın sağlam rəqabət əsasında və səmərəlilik metodları bazasında inkişaf etdirilməsi;
- kiçik və orta sahibkarlıqla məşğul olan sahələrin integrasiya və təsərrüfat əlaqələri əsasında ixtisaslaşması;
- KOS subyektlərinin özəl maliyyə qurumlarının kredit mənbələrinə çıxışı imkanlarının artırılması;
- respublikanın rayonlarında yerli əmək ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə kiçik və orta sahibkarlıq fəaliyyətindən daha geniş istifadə olunması;
- özəl sektorda maliyyə-kredit və bank sistemindən istifadə imkanlarının daha da genişləndirilməsi;
- ümumi daxili məhsulun tərkibində vergi yığımlarının xüsusi çəkisinin artması meyli nəzərə alınmaqla (bazar iqtisadiyyatlı ölkələrdə ÜDM-in tərkibində vergi yığımlarının payı 29-54 faiz olduğu halda, Azərbaycanda

10,8 faiz təşkil edir) vergilərin stimullaşdırıcı funksiyasının gücləndirilməsi;

- kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyən infrastrukturların formalaşdırılması və sahibkarlıq subyektlərinə səmərəli xidmət göstərən biznes-inkubatorlar şəbəkəsinin yaradılması.

Azərbaycan Respublikasında kiçik sahibkarlıq subyektlərinin fəaliyyət göstərdiyi əmtəə bazarının vəziyyəti iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdən əhəmiyyətli dərəcədə fərqlənir. İnkişaf etmiş ölkələrdə bazar münasibətlərini tələbin üstünlük təşkil edən təsiri və ona sürətli reaksiya, xüsusi mülkiyyətin prioritetliyi və müdafiə olunması, qanunvericiliyin müfəssəlliyi və müqavilə münasibətlərinə riayət olunma ənənələri, minimal kapitallaşma, bazar infrastrukturunun inkişaf etməsi, informasiya açıqlığı və ictimai nəzarət, maliyyə sabitliyi, istehsal amillərinin açıqlığı, milli və fövqəlmilli miqyasda coğrafi inteqrasiya xarakterizə edir. Keçid dövrü Azərbaycan iqtisadiyyatında isə tamamilə başqa vəziyyət müşahidə olunmuşdur: xarici istehsalçıların güclü təzyiqi fonunda daxili tələbin məhdudluğu və istehsalın yenidən qurulması üçün resursların yetərsizliyi; mülkiyyət münasibətlərinin tənzimlənməməsi, qanunvericiliyin fraqmentarlığı və ziddiyyətləri; korrupsiyalaşma və gizli dövriyyənin mövcudluğu; xroniki ödəməmələr, infrastruktur və malgöndərənlər şəbəkəsinin lazımınca inkişaf etməməsi; bazar konyunkturası, satıcı, alıcı və qiymətlər haqqında düzgün informasiyanın olmaması; zəif maliyyə-kredit sistemi; istehsal amilləri və malın hərəkət kanallarının inhisarlaşması; haqsız rəqabət; nəqliyyat xərclərinin artması və infrastrukturun kifayət qədər inkişaf etməməsi səbəbindən bazarın "regionlaşması".

Azərbaycanda kiçik biznes əksər xarici ölkələrin kiçik sahibkarlıq subyektlərindən fərqlənən bəzi xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər Azərbaycanda baş verən mədəni-tarixi, siyasi, sosial-iqtisadi proseslərlə şərtlənir. Onlardan ən əsası aşağıdakılardır:

- bir kiçik müəssisə çərçivəsində bir neçə fəaliyyət növünün bir araya gəlməsi, əksər hallarda birməhsullu inkişaf modelinə uyğunlaşmanın mümkün olmaması;
- xaricdə kiçik müəssisələrin çox hissəsinin subpodrat, françayzinq və s. əsasında işlədiyi bir vaxtda maksimum müstəqilliyə can atma;
- böyük innovasiya potensialı ilə ümumi aşağı texniki səviyyə və aşağı texnoloji təchizat;
- yüksək ixtisaslı kiçik biznes kadrlarının iqtisadiyyatın dövlət sektorundan axını ilə əlaqədar olaraq bu cür mütəxəssislərin sayının çox olması;
- aşağı idarəetmə səviyyəsi, biliklərin, bazar münasibətləri təcrübəsinin



və mədəniyyətinin çatışmazlığı;
- mürəkkəb iqtisadi şəraitə yüksək uyğunlaşma dərəcəsi;
- kiçik sahibkarlıq subyektlərinin özünütəşkil sisteminin və yardım infrastrukturunun inkişaf etməməsi;
- uğurla fəaliyyət göstərən kiçik müəssisələrin lokal bazarlar çərçivəsindən kənara, o cümlədən beynəlxalq bazarlara çıxmaq cəhdi;
- kiçik biznesin iri müəssisələrlə qarşılıqlı münasibətinin az qala düşmənçilik səviyyəsində olması;
- kiçik biznes müəssisələrinin bir-biri ilə qarşılıqlı münasibəti: maraqlar və davranışın fərqlənməsi, haqsız tərəfdaşlıq;
- kiçik biznesin daxili problemləri: sahibkarlar üçün təhsil xidmətlərinin yüksək dəyəri və aşağı keyfiyyəti; muzdlu işçilərin vicdansız davranışı; əlverişsiz daxili mühit amilləri;
- bazarın vəziyyəti və konyunkturası haqqında tam və düzgün informasiyanın olmadığı şəraitdə iş, informasiya, məsləhət və təlim xidmətləri sisteminin inkişaf etməməsi.

**Dissertasiya işinin ikinci fəsli** "Sahibkarliğin inkişafının dövlət tənzimlənməsi və dəstəklənməsi sistemi" adlanır. Bu fəsildə qeyd edilir ki, sahibkarlıq prosesinin subyekti olmaq etibarilə dövlətin rolu ictimai şəraitlərdən, işgüzar fəallıq sferasında yaranan vəziyyətlərdən və dövlətin öz qarşısına qoyduğu məqsədlərdən asılı olaraq müxtəlif ola bilər. O cümlədən konkret vəziyyətlərdən asılı olaraq, dövlət: a) sahibkarlığın inkişafını ləngidən əyləc ola bilər, o halda ki, dövlət sahibkarlığın inkişafı üçün son dərəcə əlverişli olmayan şərait yaradır və ya hətta sahibkarlığı qadağan edir; b) kənar seyrçi olur, o halda ki, sahibkarlığın inkişafına birbaşa mane olmur, lakin eyni zamanda, onun inkişafına da kömək etmir; c) sahibkarlıq prosesinin sürətləndiricisi olur, o halda ki, sahibkarlıq prosesinə yeni iqtisadi agentlərin cəlb edilməsi üzrə tədbirlərin daimi və fəal axtarışı ilə məşğul olur (çox vaxt dövlətin belə məqsədyönlü fəaliyyəti sahibkarlıq fəallığının "partlayışı"na və sahibkarlığın vüsət almasına gətirib çıxarır).

Bəs sahibkarlıq prosesinin sürətləndiricisi kimi dövlətin funksiyaları nədən ibarətdir?

Birincisi, dövlət maarifçilik funksiyasını, yəni sahibkarlıq kadrlarının peşə hazırlığı və tərbiyəsi üzrə funksiyaları öz üzərinə götürür.

İkincisi, sahibkarlıq fəaliyyəti sferasına təzəcə qədəm qoyanları və ya qədəm qoymaq istəyənləri maliyyə baxımından dəstəkləyir. Adətən, bu məqsədlə dövlət tərəfindən sahibkarlara kömək üzrə xüsusi proqramlar işlənib hazırlanır ki, onlarda da güzəştli kreditləşdirmə tədbirləri nəzərdə

tutulur. Hər hansı bir sahibkarlıq layihəsinin həyata keçirilməsi ilə məşğul olanlara xüsusi güzəştlər verilir.

Üçüncüsü, dövlət adətən, sahibkarlar üçün tələb olunan sahibkarlıq infrastrukturunun, yəni sahibkarlara layihələrin həyata keçirilməsinin səmərəliliyi üçün zəruri xidmətləri göstərə bilən (sahibkarlıq layihələrinin əsas məzmunu baxımından) bütün köməkçi strukturların yaradılması funksiyasını öz üzərinə götürür. Dövlət adətən, sahibkarı lazımi (çox vaxt marketinq) informasiya ilə təchiz edir, həmçinin, elmi, elmi-texniki, layihə-axtarış və digər işlərin aparılması və onların nəticələrinin təmənnasız və ya güzəştli əsasda sahibkarlara təqdim edilməsi üzrə xərcləri öz öhdəsinə götürür. Dövlət, həmçinin, sahibkarların fəaliyyətini yüngülləşdirən məsləhət, hüquq və digər firmaların təsis edilməsinə çalışır, habelə sahibkarlıq strukturları üçün lazımi ixtisasa malik kadrların hazırlanması funksiyasını öz üzərinə götürür.

Keçid iqtisadiyyatı dövründə sahibkarlıq mühitinin formalaşdırılması prosesinin dövlət tənzimlənməsi bir-biri ilə sıx bağlı olan üç vəzifənin həllini ehtiva edir: sistem dəyişikliklərinin keçirilməsi, iqtisadiyyatın liberallaşdırılması və makroiqtisadi sabitləşdirmə. Əgər bu vəzifələrin həlli instrumentarisinə baxsaq, onda həmin proseslərdə dövlətin həlledici rolu şübhəsizdir.

İşdə sahibkarlığın inkişaf problemləri ilə yanaşı kəndin sosial-iqtisadi inkişaf dinamikası tədiqiq olunur. İqtisadiyyatın sabitləşdirilməsi, islahatların dərinləşməsi, sahibkarlıq fəaliyytəinin təşkili ilə yanaşı perspektivdə yoxsulluğun azaldılması, əhalinin gəlirlərinin artırılması üçün inkişaf strategiyasının müəyyənləşdirilməsi təklif edilir. Belə ki, regional problemlərə kənd təsərrüfatı məhsullarının emalı və marketinq xidməti göstərən kiçik müəssisələrə kredit limitlərinin vasitəsilə köməklik göstərilməsi, gəlirli müəssisələrə də güzəştli kredit ayırmaları sisteminin təkmilləşdirilməsini vacib hesab edirik.

Son dövrdə dövlət tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına birbaşa yardımlar, subsidiyalar və dolayı vergi güzəştləri, güzəştli kreditlər və sair yollarla dəstəklər göstərilmişdir. Stimullaşdırmaq məqsədi ilə aqrar sahədə kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət büdcəsi tərəfindən bir neçə istiqamətdə subsidiyalar verilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin «Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında» 2007-ci ildəki Sərəncamının icrası ilə bağlı istehsalçılara hər hektar əkin sahəsinin və çox illik əkmələrin becərilməsində sərf olunan yanacaq və motor yağlarına görə 40 manat, habelə hər hektar buğda və çəltik səpininə görə dövlət büdcəsinin vəsaiti hesabına əlavə



olaraq 40 manat yardım edilib. Belə ki, 2007-2010-cu illər ərzində kənd təsərrüfatı məhsullarının istehsalçılarına 307,5 mln. manat subsidiya verilmişdir.

Digər tərəfdən İqtisadi İnkişaf Nazirliyinin «» «Sahibkarlığa Kömək Milli Fondu»-nun vəsaiti hesabına 2005-2010-cu illər ərzində kənd təsərrüfatı məhsullarının istehsal və emal sahələrinin 7 449 sahibkarlıq subyektinə 228,7 mln.manat kredit verilmişdir.

Ölkədə sahibkarlığın inkişafına şərait yaradılması və islahatların həyata keçirilməsi nəticəsində aqrar iqtisadiyyatın strukturunda köklü dəyişikliklər baş vermiş, özəl bölmə bu sahəyə təsir göstərən mühüm amilə çevrilmişdir. Kənd əhalisinin əksəriyyəti yəni 3,4 mln. nəfəri və yaxud 870 min ailə torpaq sahibinə çevrilmiş və onlar sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. Bu gün aqrar istehsalda özəl bölmənin xüsusi çəkisi 99,8%-dən çox təşkil edir.

Dissertasiyada dövlət müdaxiləsinin istiqamətlərinin belə bir siyahısı təklif edilmişdir:

1. Bazar sisteminin səmərəli fəaliyyətinə yardım edən hüquqi bazanın (hüquqi əsasın) və ictimai atmosferin təmin edilməsi.
2. Rəqabətin dəstəklənməsi və inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması.
3. Gəlirlərin yenidən bölüşdürülməsi (transfertlər).
4. Resursların yenidən bölüşdürülməsi.
5. Bütövlükdə iqtisadiyyatın sabitləşdirilməsi.
6. Biznesin müəyyən növlərinə dövlət köməyi.
7. Xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsi.
8. Əmək münasibətlərinin dövlət tənzimlənməsi, sosial tərəfdaşlığın təmin edilməsi.
9. Valyuta tənzimlənməsi.
10. İstehlakçıların hüquqlarının müdafiəsi.

Dövlətin tənzimləyici təsiri tənzimləmə prosesinin mərhələlərini təşkil edən müəyyən hərəkətlərin ardıcıllığı əsasında baş verir. Bir-biri ilə sıx bağlı və qarşılıqlı fəaliyyətdə olan iki anlayışı fərqləndirmək lazımdır: tənzimləmə funksiyaları və tənzimləmə mərhələləri. Tənzimləmə funksiyaları tənzimləmənin məzmununu bildirir və dövlət tənzimlənməsi subyektlərinin məqsədləri ilə müəyyən edilən fəaliyyətinin növlərini və ya müstəqil və əlahiddə istiqamətlərini ehtiva edir. Tənzimləmə funksiyalarını ümumi və xüsusi funksiyalara ayırırlar. Ümumi funksiyalar obyektiv olaraq istənilən tənzimləyici təsir prosesində mövcud olur və dövlət tənzumlənməsinin istənilən subyektinə xasdır. Onlara aşağıdakılar aiddir:

-proqnozlaşdırma və planlaşdırma (operativ və uzunmüddətli proqramların işlənib hazırlanması, onların material, maliyyə və əmək resursları ilə təmin edilməsi);

-təşkil etmə (tənzimləmə sistemi strukturlarının formalaşdırılması, funksional qarşılıqlı əlaqənin müəyyən edilməsi);

-rəhbərlik (qayda və normativlərin müəyyən edilməsi, əlaqələndirmə);

-operativ sərəncamçılıq (idarəetmə);

-nəzarət.

Cədvəl 4

Özəl investisiya qərarlarına dövlətin təsir alətləri

| Özəl investisiya ara təsir alətləri | Təsir sferası | Təsir obyektləri | Təsir alətləri |
|---|---|---|---|
| Makroiqtisadi | İnvestisiyaların ümumi iqtisadi iqlimi | İqtisadiyyatın artım sürəti<br>Faiz dərəcəsi<br>Xarici ticarət rejimi | Büdcə-vergi və pul-kredit siyasəti<br>Gömrük siyasəti |
| Mikroiqtisadi | İnvestisiyaların ayrı-ayrı tərkib hissələri və ya investisiya tələb edən ayrı-ayrı sahələr | Vergitutma<br>Amortizasiya qaydaları<br>Kreditləşdirmə | Vergi dərəcələri<br>Amortizasiya normaları<br>Kreditlərin güzəştlə verilməsi |
| İnstitusional | Fərdi investorların investisiya siyasəti | Fərdi investorların investisiya proqramları | Dövlət investisiya siyasəti orqanları tərəfindən fərdi investisiya proqramlarının koordinasiyası |

Qeyd edilənlərə yekun vuraraq, dövlətin bazar iqtisadiyyatı kimi son dərəcə mürəkkəb sistemdə nə etdiyi – idarə etdiyi, yoxsa tənzimlədiyi barədə terminoloji diskusiyalara gəldikdə isə biz bunun məhz idarəetmə olduğu qənaətindəyik.

Tədqiqat işində əsaslandırılmışdır ki, Avropa Birliyində və AB-nin iştirakçı-ölkələrində kiçik və orta sahibkarlığın çiçəklənməsinə gətirib çıxarmış sahibkarlıq problematikasının öyrənilməsi bizə AB təcrübəsindən aşağıdakı istiqamətlər üzrə bəhrələnməyə imkan verəcəkdir:

kiçik biznesin təkmilləşdirilməsi və dəstəklənməsi üzrə dövlət tərəfindən fəal siyasətin həyata keçirilməsi yolu ilə kiçik biznesin inkişafı üçün hüquqi və iqtisadi şəraitin yaradılması; bu istiqamət çərçivəsində müxtəlif



təkmilləşdirmə və kömək tədbirləri nəzərə alınmaqla, kiçik müəssisələrə dair meyarların dəqiqləşdirilməsi;

iri biznes tərəfindən kiçik sahibkarlığa inteqrasiyalı köməyin inkişaf etdirilməsinin stimullaşdırılması.

Birinci istiqamət üzrə əsas tədbirlər sırasında aşağıdakıları qeyd etmək olar:

1) İqtisadi, hüquqi, vergi və digər siyasətdə kiçik sahibkarlığın mənafelərinin dərindən nəzərə alınması yolu ilə bu fəaliyyət növünə dair qanunvericiliyin sadələşdirilməsi və təkmilləşdirilməsi, müsbət təcrübənin (o cümlədən həm də xarici təcrübənin) geniş yayılması, bu istiqamətlər üzrə icra və bələdiyyə hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi. Bu istiqamətdə başlıca çətinlik, zənnimizcə, aşağıdakılardan ibarətdir: kiçik sahibkarlığın inkişafının tənzimlənməsi və dəstəklənməsi üzrə dövlət siyasətinin həyata keçirilməsinə, onun yerinə yetirilməsi mexanizminə yönəlmiş qarşılıqlı surətdə əlaqəli normativ-hüquqi sənədlər kompleksinin işlənib hazırlanması, habelə bu işdə iştirak edən bütün orqan və təşkilatların, bir tərəfdən, fəaliyyətindəki təkrarçılığı aradan qaldırmaq, digər tərəfdən isə KOS-un inkişafının bütün zəruri şərtlərini tam dolğun əhatə etmək üçün onların hər birinin vəzifələrinin, funksiyalarının, hüquqlarının və məsuliyyətinin dəqiq müəyyənləşdirilməsi;

2) Kiçik sahibkarlığın maliyyələşdirilməsinin artırılması, kredit resursları almaq üçün əlyetərliliyin genişləndirilməsi, konkret maliyyə təsisatlarının və alətlərinin formalaşdırılması, kiçik biznes üçün kapital bazarlarının inkişaf etdirilməsi. Bu tədbirlərin həyata keçirilməsi üçün, zənnimizcə, KOS-un tənzimlənməsi və dəstəklənməsinin birbaşa və dolayı metodlarını, onların məqsədyönlülüyünü və ünvanlılığını yaxşılaşdırmaqla, daha ağıllı şəkildə uzlaşdırmaq, habelə kiçik sahibkarlığın maliyyələşdirilməsi üzrə dövlət təminatını yüksəltməklə kiçik biznesin inkişafına yardımın xüsusi vergi, maliyyə, kredit, investisiya və sığorta alətlərinin tətbiqini genişləndirmək lazımdır;

3) Kiçik sahibkarlıq sektoruna informasiya xidməti sferasının və vahid informasiya mərkəzləri sisteminin yaradılması, ona kömək, yeni bazarlara çıxmaq və beynəlxalq partnyorluğa nail olmaq proqramlarının işlənib hazırlanması, kiçik biznesin bütün maraqlı təşkilat və müəssisələrinə kömək və əməkdaşlıq üzrə etibarlı və inkişaf etmiş infrastrukturun yaradılması.

4) Biznes mədəniyyətini və “sahibkarlıq ruhu”nu yüksəltmək üçün şəraitin yaradılması, kiçik müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsi, onlar tərəfindən innovasiyalara və təlim keçməyə əlyetərliliyin təmin edilməsi, xarici mühitin sürətlə dəyişən şərtlərinə və tələblərinə uyğun-

laşmaq şəraitində kiçik və orta müəssisələrə kömək göstərilməsi.

AB təcrübəsindən istifadənin ikinci istiqamətinə gəldikdə isə son onilliklər ərzində AB-nin uğurlu inkişafının əsasını təşkil edən kiçik və orta müəssisələr iri bizneslə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. Buna görə də xüsusiyyətindən və buraxdığı məhsula tələbatdan asılı olaraq, hər bir sahədə müxtəlif ölçülü müəssisələrin rasional şəkildə uzlaşdırılmasının təmin edilməsi, zənnimizcə, çox mühüm vəzifədir. Üstəlik, AB-də kiçik və orta müəssisələrin xeyli hissəsi iri müəssisələrin "yanında" və "onlar üçün" mövcuddur. Bu zaman kiçik firmaların vəziyyətinin dayanıqlığı, gəlirləri, maliyyə və investisiya imkanları bilavasitə onların iri müəssisələrlə münasibətlərindən asılı olur.

Apardığımız tədqiqatlar göstərir ki, iri biznes tərəfindən müəssisələrə inteqrallaşmış köməyin forması olmaq etibarilə françayzinqin imkanlarından da zəif istifadə olunur. Fikrimizcə, bu istiqamətlərdə regional orqanların və yerli hakimiyyət orqanlarının rolunu yüksəltmək çox vacibdir.

Zənnimizcə, dövlət həmçinin, vençur maliyyələşməsi üzrə də ciddi tədbirlər görməlidir. Bu, Azərbaycan elminə tələbin olmaması ilə iqtisadiyyatın bütün sahələrinin texniki bazasını kardinal şəkildə yeniləmək zərurəti arasında münaqışəli vəziyyətin aradan qalxmasına yardım edə bilərdi. Burada iri biznes subyektləri qismində maliyyə-sənaye qrupları və ölkə iqtisadiyyatının "flaqman"ları çıxış edə bilərlər. İnnovasiya fəaliyyətinin idarəetmə mexanizminin və koordinasiyasının yenidən qurulması da həllini gözləyən məsələlərdəndir. Eyni zamanda, hələ də tələbat olan və maliyyələşdirilən tədqiqatlar və layihələr üzrə elmi-tədqiqat və təcrübə-konstruktor işləri və innovasiyalar sferasında fəaliyyət göstərən kiçik və iri müəssisələrin əməkdaşlığını təmin etmək son dərəcə vacibdir.

Xarici ölkələrin təcrübəsinə əsasən Azərbaycan Respublikasında sahibkarlıq sektorunun möhkəmlənməsi üçün təkcə kiçik sahibkarlığın deyil, həm də ölkənin bütün iqtisadiyyatının inkişafının magistral istiqaməti kimi, kiçik və iri müəssisələrin əməkdaşlığını hər vasitə ilə dəstəkləmək lazımdır. Bu əməkdaşlığın stimullaşdırılması isə kiçik biznesə dövlət köməyi və dövlət tənzimlənməsi siyasətinin vacib tərkib hissəsi olmalıdır.

**İşin üçüncü fəsli** "Sahibkarliğin inkişafinin təşkilati-iqtisadi və sosial-hüquqi problemləri" adlanır. Bu fəsildə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsində baza rolu oynayan hüquqi –normativ aktların tətbiqi ilə bağlı yaranan nöqsanla ətraflı şərh olunmuşdur.

Məlum olduğu kimi Ölkəmizdə sahibkarlıq sahəsində təməl normativ akt Azərbaycan Respublikasının Konstitusiyasıdır. Konstitusiyanın 15-ci maddəsinə görə:



"I. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir.

II. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafina şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir".

Bunlar elə təməl prinsiplərdir ki, a) mülkiyyət çoxnövlülüyünü, b) iqtisadiyyatın bazar münasibətləri əsasında inkişafını, c) iqtisadiyyatın sosial yönümlülüyünü ç) sahibkarlıq fəaliyyətinin mümkünlüyünü, d) iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsini təsbit edir. Daha bir vacib məqam Konstitusiyanın 16-cı maddəsində təsbit olunmuşdur: "Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifanın yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır".

Azərbaycan Respublikası Milli Məclisinin qərarları, yaxud ölkə Prezidentinin fərman və sərəncamları ilə təsdiqlənən mühüm dövlət sənədləri: "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin əsas istiqamətləri" və "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı sahəsində Dövlət Proqramı (1993-1995-ci illər)", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı (1997-2000-ci illər)**,** "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı", "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" və s. respublikamızda sahibkarlığın ardıcıl inkişafına, milli iqtisadiyyatda kiçik və orta sahibkarlığın rolunun gücləndirilməsinə, onun qanunvericilik və normativ hüquqi bazasının, maliyyə-kredit sisteminin formalaşdırılmasına, informasiya, kadr və elmi-metodiki təminatının yaradılmasına yönəldilmiş ümumdövlət əhəmiyyətli sənədlərdəndir.

Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi, həmçinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir. Bu tənzimlənmə Azərbaycan Respublikasının Konstitusiyası ilə dövlət başçısına verilmiş səlahiyyətlər

çərçivəsində, həm qəbul edilmiş qanunların tətbiqi ilə bağlı, həm də sahibkarlıq sferasında dəyişikliklərin dinamizminə operativ reaksiya ilə əlaqədar onun müvafiq fərman və sərəncamlar imzalamasında təzahür edir. Üstəlik də Prezidentin fərman və sərəncamlarında (habelə hökumətin qərarlarında) hüquqi normalar daha müfəssəl, qanunlarda olduğuna nisbətən daha konkret olur. Bu aktlar yüksək normativlik dərəcəsinə malikdir və sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər üçün məcburidir, Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

Bu mənada, Azərbaycan Respublikası Prezidentinin çoxsaylı fərman və sərəncamları sırasında 1996-cı il 17 iyun tarixli "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarəinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə", 1997-ci il 13 dekabr tarixli "Dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində təşkilati-hüquqi formasını dəyişmiş müəssisələrin vaxtında ödənilməmiş borclarının ödənilməsi haqqında", 1999-cu il 7 yanvar tarixli "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında", 2002-ci il 2 sentyabr tarixli "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında", 2002-ci il 10 sentyabr tarixli "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında", 2002-ci il 28 sentyabr tarixli "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında", 2003-cü il 2 may tarixli "Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin bəzi məsələləri haqqında" və 2003-cü il 24 noyabr tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Prezident fərmanlarını xüsusi qeyd etmək lazımdır.

Son illərdə sahibkarlığın inkişafının tənzimlənməsi sahəsində qəbul edilmiş qanunvericilik aktlarının təhlili göstərmişdir ki, onların böyük əksəriyyəti yalnız sahibkarlıq fəaliyyətinin ayrı-ayrı aspektlərinin (məsələn, lisenziyalaşdırmanın) tənzimlənməsinə aiddir. Həm də bu zaman sahibkarlığın inkişaf etdirilməsinin bir çox mühüm aspektləri indiyə qədər hüququn diqqət dairəsindən kənarda qalır. Ona görə də, sahibkarlıq fəaliyyətinin idarə mənafelərinə cavab verən aktlarla tənzimlənməsi praktikasından onların qanunvericiliklə, bütün ölkə üçün ümumi olan qanunlar əsasında tənzimlənməsi praktikasına keçmək daha məqsədəuyğundur. Bu baxımdan, Azərbaycan Respublikasının Sahibkarlıq Məcəlləsinin qəbul edilməsi aktuallıq kəsb edir.

**Dördüncü fəsil** "Azərbaycanda kiçik sahibkarliq müəssisələrinin strateji idarəetmə mexanizmi" adlanır. Kiçik sahibkarlığın mövcudluğunun şərtləri



ondan xəbər verir ki, kiçik müəssisələrin özünün mövcudluğu rəhbərliyin hadisələrin inkişaf perspektivlərini nə dərəcədə düzgün proqnozlaşdırmasından, firmanın daxili imkanlarını qiymətləndirməsindən, qoyulmuş məqsədlərə nail olmaq üçün təşkilatın bütün yarımsistemlərinin fəaliyyətini nə dərəcədə yaxşı əlaqələndirməsindən asılıdır. Strateji idarəetmə yarımsistemi bu işləri həyata keçirməlidir.

Kiçik müəssisələrdə baş verən dəyişikliklərin dinamikliyi nəticəsində yaranan strateji idarəetmə prosesinin həyata keçirilməsi zərurəti ilə kiçik müəssisələr üçün adekvat metodika və modellərin olmaması arasında ziddiyyət meydana çıxır.

Strateji idarəetmənin olmaması müəssisənin sanki uzağı görməməs, yalnız qısamüddətli, bəzən isə ani və ya gecikmiş qərarlar qəbul edə bilməsi deməkdir.

Strateji idarəetmə aşağıdakı ilkin şərtlərdən irəli gəlir:

- təşkilatın gələcəkdə nəyə nail olmaq istədiyi haqqında təsəvvürün olması;
- əsas problem mənbəyi təşkilatın xarici mühitindədir;
- təşkilat problemləri vaxtında müəyyən etmək imkanına və onların həlli mexanizminə malik olmalıdır;
- hadisələrə idarəetmə reaksiyası artıq onlar baş verdikdən sonra gəlməməlidir;
- idarəetmənin ağırlıq mərkəzi itkilərə yol verməmək və onlardan qaçmağın mümkün olmadığı halda minimuma endirməklə bağlı hərəkətlərə doğru yerini dəyişməlidir;
- təşkilatın potensialı bazarda zəruri mövqeləri təmin etmək üçün açılan imkanlara və strateji vəzifələrə "uyğunlaşdırılmalıdır";
- cari (operativ) idarəetmə strateji idarəetmənin davamı, konkretləşdirilməsidir və mövcud strategiya çərçivəsində həyata keçirilməlidir.

Kiçik müəssisələr üçün strateji idarəetmə məsələləri xüsusilə aktual xarakter daşıyır, çünki bir tərəfdən, təsərrüfat fəaliyyətinin digər subyektləri (yerli hakimiyyət orqanları, inhisarlar, nəzarət orqanları və s.) ilə münasibətdə kiçik sahibkarlıq subyektləri daha az müdafiə olunmuşdur, digər tərəfdən isə kiçik müəssisələr kifayət qədər rəqabət mühiti yaradırlar, buna görə də rəqabətin olması onların fəaliyyətinə təsir göstərən xarici mühit amili kimi xüsusi əhəmiyyətə malikdir. Bununla əlaqədar olaraq, kiçik müəssisələr üçün həm rəqabət mübarizəsində yeni imkanların axtarışı, həm də ətraf aləmdə baş verən dəyişiklikləri izləmək və onlara uyğunlaşmaq xüsusilə aktualdır.

Strateji idarəetmə - strategiyalar kompleksinin işlənib hazırlanması və

gerçəkləşdirilməsi ilə bağlı müəyyən hərəkətlərin ardıcıllığını nəzərdə tutan prosesdir. Bilavasitə bu proses xarici mühitin və şirkətin daxili imkanlarının hərtərəfli öyrənilməsini (diaqnostikasını) tələb edir. Bu müddəa praktik olaraq bu günə qədər işlənib hazırlanmış bütün strateji idarəetmə modelləri üçün ümumidir. Həmin modellərin hamısı: birincisi, xarici mühitin monitorinqini, ikincisi, daxili imkanların təhlilini, üçüncüsü, missiya və strateji məqsədlərin qoyuluşunu, dördüncüsü, alternativlərdən strategiyanın seçilməsini və beşincisi, strategiyanın həyata keçirilməsinin qiymətləndirilməsini ehtiva edir.

Lakin bu modellərin heç birində daxili imkanların və xarici şərtlərin təhlilinin konkret mexanizmi, məqsəd və strategiyaların seçim meyarları, strategiyaların həyata keçirilməsinin qiymətləndirmə meyarları açıqlanmır. Fikrimizcə, regional iqtisadiyyat şəraitində fəaliyyət göstərən kiçik müəssisələr üçün inteqral qiymətləndirmədə xarici mühitin xüsusiyyətləri, firmanın daxili imkanları, strategiyalar dəsti, strateji alternativlər, eləcə də strateji tədbirlərin icrasının qiymətləndirmə mexanizmini birləşdirməyə imkan verən müəyyən alətlər dəsti lazımdır.

Yuxarıda qeyd olunanlara əsaslanaraq, tədqiqat işində Azərbaycanda kiçik sahibkarlıq müəssisələrində strateji idarəetmə prosesinin aşağıdakı xüsusiyyətləri müəyyənləşdirilmişdir.

1. KS müəssisələrində strateji idarəetmənin yaranması xalq təsərrüfatının praktik olaraq bütün sahələrində artan rəqabət şəraitində kiçik müəssisələrin həyatda qalmasını təmin etmək üçün obyektiv zərurətlə bağlıdır.

2. Xarici mühitin sabitlik səviyyəsinin kifayət qədər yüksək olması səbəbindən kiçik müəssisələrin strateji idarəetmə yarımsistemi gələcək inkişaf yollarının seçilməsində təyinedicidir.

3. Əksər kiçik müəssisələrin lokal bazarda fəaliyyət göstərməsi faktını nəzərə alaraq, strateji idarəetmə yarımsistemi yerli mühitlə təşkilatın istehsalat yarımsistemi arasındakı kommunikasiya proseslərinin formalaşdırılması zamanı həlledici rol oynayır.

4. Kiçik müəssisələrdə strateji idarəetmə yarımsisteminin mövcudluğu və fəaliyyət səviyyəsi bilavasitə mülkiyyətçi-rəhbərin şəxsiyyətinin xarakteristikaları, insani dəyərləri və sahibkarlıq keyfiyyətlərindən asılıdır.

5. Kiçik müəssisələrin idarə olunması strateji idarəetmə zərurəti və formalaşmış şərtlərə adekvat strateji idarəetmə metodikalarının olmaması, eləcə də rəhbərliyin istisnasız olaraq cari rentabelliyin təmin edilməsinə yönlənməsi arasında bir sıra ziddiyyətlər formalaşdırır.

6. Strateji idarəetmə yarımsisteminin formalaşması nizamlanmış xarakterdən daha çox xaotik xarakter daşıyır. Bu, xarici mühitin yüksək qeyri-



sabitlik dərəcəsi ilə bağlıdır.

7. Reallıqda strateji idarəetmə yarımsisteminin mövcud olması qeyri-effektiv fəaliyyət göstərən operativ idarəetmə yarımsistemi və ümumfirma strateji inkişaf konsepsiyasının olmaması səbəbindən latent xarakter daşıyır.

Beləliklə, deyilənləri ümumiləşdirərək qeyd edə bilərik ki, strateji məqsədlərin qoyulması mexanizmi: birincisi, kiçik müəssisələrin inkişafında maraqlı olan qrupların, daha dəqiq desək, dövlətin, mülkiyyətçilərin, menecmentin, işçi heyətin, kənar ictimai təşkilatların və kiçik müəssisələrin fəaliyyətini tənzimləyən təşkilatların maraqlarının balanslaşdırılması baxımından müəyyən növ güzəştli qərarı nəzərdə tutur; ikincisi, məqsədlərin dəyişkənlik və təkamül amili arzu olunan nəticənin qiymətləndirilməsi parametrlərinin yol verilən kəmiyyətlərinin strateji oriyentir kimi formalaşdırılan müəyyən intervalını nəzərdə tutur; üçüncüsü, “oriyentirlər ağacı”nın formalaşdırılması mexanizmi kompleks yanaşmaya əsaslanır və ümumi şəkildə təşkilatın missiyasını əks etdirir; nəhayət, strateji oriyentirlərdən hər birinə konkret strategiya uyğundur.

Azərbaycanda kiçik müəssisələr üçün mövcud və perspektiv biznesin gələcək inkişafının qiymətləndirilməsi parametrləri kimi aşağıdakı göstəricilərdən istifadə edilməsi mümkündür:

1.Tələbin dəyişməsi baxımından biznesin cəlbediciliyinin qiymətləndirilməsi;

2.Rəqabətdə mövqelər baxımından biznesin cəlbediciliyinin qiymətləndirilməsi.

Bu göstəricilərin aşkarlanması üçün, müvafiq olaraq, tələbin və rəqabətdə mövqelərin dəyişməsinə təsir göstərə biləcək amilləri (hadisələri) fərqləndirmək lazımdır. Bu cür amillərin müəyyən edilməsi hər bir kiçik müəssisə üçün kifayət qədər fərdi məsələdir. Onların fəaliyyət şəraitinin spesifikasını nəzərə alaraq, mövcud və perspektiv biznesdə tələbin dəyişməsi perspektivlərinin qiymətləndirilməsi üçün aşağıdakı amillərdən istifadə etməyi təklif edirik: siyasi hadisələr, iqtisadiyyatda baş verən hadisələr, sosial sahədə baş verən hadisələr, texnologiyada baş verən hadisələr, tələbin dəyişməsinə təsir göstərə biləcək digər hadisələr.

Kiçik müəssisənin strateji idarəetmə yarımsisteminin əsas fəaliyyət mexanizmləri ilə bağlı aşağıdakı başlıca nəticələrə gəlmək olar:

1. Strateji idarəetmə mexanizmi mürəkkəb idarəetmə kateqoriyasıdır və o, öz növbəsində, daha aşağı səviyyəli mexanizmlər (xətti mexanizmlər) kompleksini, daha dəqiq desək, strateji məqsədlərin qoyulması mexanizmini, “strategiyalar ağacı”nın formalaşdırılması mexanizmini, ətraf mühitdəki dəyişikliklərin kiçik müəssisələrin gələcək fəaliyyətinə təsirinin qiymətlən-

dirilməsi mexanizmini və müəssisənin daxili mühitinin vəziyyətinin qiymətləndirilməsi mexanizmini əmələ gətirən tərkib hissələrini ehtiva edir.

2. Yerli bazarda fəaliyyət göstərən KS subyektinə xarici mühitin dəyişiklikləri kritik təsir göstərə bilər. Strateji monitorinq yarımsisteminin xarici mühitdəki dəyişikliklərin kiçik müəssisənin fəaliyyətinə təsirinin qiymətləndirilməsi mexanizmi kimi fəaliyyəti dəyişikliklərin rəhbərliyin strateji planlarına təsiri haqqında informasiya ilə təmin edir. Dəyişilməsi gələcəkdə müəssisənin mövqelərinə əhəmiyyətli təsir göstərə biləcək amillərin müəyyən edilməsi hər bir kiçik müəssisə üçün sırf fərdidir.

3. Strategiyalar kompleksinin həyata keçirilməsi firmanın daxili mühitinin vəziyyəti haqqında dəqiq informasiya olmadan qeyri-mümkündür. Müəssisənin daxili mühitinin potensialın qiymətləndirilməsi metodikası vasitəsilə həyata keçirilən qiymətləndirilmə mexanizmi kiçik müəssisənin daxili imkanlarını adekvat qiymətləndirməyə imkan verir. Potensialın qiymətləndirilməsinin təklif olunan tərkib hissələri strategiyalar kompleksinin həyata keçirilməsi üçün şirkətin imkanlarının vəziyyətinin kompleks qiymətləndirməsini əldə etməyə imkan verir.

4. Strateji idarəetmə mexanizmi qoyulmuş strateji məqsədlərin həyata keçirilməsi üçün alətlər dəsti kimi “strategiyalar ağacı”nın olmasını nəzərdə tutur. “Strategiyalar ağacı” yalnız firmanın bazarda davranış konsepsiyasını deyil, həm də firmanın fəaliyyətinin daxili məzmununu (təşkilati və əmək aspektlərini) əhatə etməlidir.

5. Regional iqtisadiyyat şəraitində fəaliyyət göstərən kiçik müəssisə ən yaxın institusional əhatəsinin bilavasitə təsir obyektidir. Buna görə də missiyanın olması xarici mühit subyektlərinin (hakimiyyət orqanları, ictimai təşkilatlar) kiçik müəssisəyə münasibətinin formalaşdırılmasının zəruri şərtidir, rəqabət üstünlükləri və işgüzar kredonu əks etdirir, müəssisənin təşkilati mədəniyyətinin bünövrəsidir.

**Dissertasiya işinin beşinici fəsli** “Sahibkarlığın səmərəliliyinin artırılmasının sosial-bazar modelinin konseptual əsaslari” adlanır. Bu fəsldə sosialyönümlü iqtisadi modelin tərkibində sahibkarlıq fəaliy yətinin səmərəliliyinin artırılmasına təsir edən amillər geniş tədqiq olunmuşdur.

Azərbaycanda ənənəvi olaraq müəssisələr uzun illər ərzində bazar və mənfəət uğrunda rəqabət aparmasalar da, fondlar, limitlər, idxal avadanlığı, dövlət kapital qoyuluşlarının alınması və direktiv tapşırıqların azaldılması uğrunda bir-biri ilə aktiv mübarizə aparmışlar. Bu “inzibati rəqabət” müəssisələri plan tapşırıqlarını yerinə yetirməyə məcbur edir və onlara dövlət resurslarını öz maraqlarına uyğun istismar etməyə imkan verirdi. Bu cür rəqabət idarə inhisarçılığının əks tərəfidir. Onun maddi əsası istehsalın



yüksək rəqabət səviyyəsi və iqtisadiyyatın “ikinci mərtəbəsi”nin -- kiçik biznesin zəif inkişaf etməsidir.

Başqa sözlə desək, bazar iqtisadiyyatının başlıca prinsiplərindən biri əmtəə istehsalçılarının sərbəst rəqabəti, yəni istehsalçılar və ya malgöndərənlər, müəssisələr, firmalar arasında özünün sahibkarlıq fəaliyyətinin ən yaxşı nəticələrinə nail olmaq məqsədilə ən əlverişli istehsal və satış şərtləri uğrunda mübarizədir. Buna görə də uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyası diversifikasiya olunmuş istehsal və ixrac strukturuna malik effektiv, rəqabət qabiliyyətli iqtisadiyyatın yaradılmasını nəzərdə tutur ki, bu da normal rəqabət mühitini formalaşdırmadan mümkün deyil. Mal istehsalçıları arasında sərt mübarizə şəraitində çox zaman rəqabət norma və qaydalarının pozulması ilə əlaqədar metodlar, yəni ***haqsız*** rəqabət – “bazar subyektinin sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bununla da digər bazar subyektlərinə (rəqiblərinə) zərər vura bilən, yaxud onların işgüzarlıq nüfuzuna xələl yetirə bilən hərəkətlər” (“Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasının Qanunu, maddə 1) tətbiq edilir.

Cədvəl 5.

Sahibkarlıq qərarlarının qəbul edilməsinin əsas mərhələlərinin xarakteristikası

| Mərhələnin adı | Mərhələnin xarakteristikası | Məsul şəxslər |
|---|---|---|
| Problemin dərk edilməsi və öncədən görülməsi | Firmanın xarici və daxili mühitinin ekspres-diaqnostikası | Sahibkar, menecer |
| Problemin ifadə olunması | Problemin həllinin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi; məqsədə nail olma alternativinin qiymətləndirilməsi | Sahibkar, menecer |
| Qərarın hazırlanması | İnformasiyanın toplanması, təhlili, işlənməsi; mümkün hərəkət strategiyalarının aşkarlanması;<br>hərəkət strategiyalarının qoyulmuş məqsədlərə müvafiqliyinin qiymətləndirilməsi | Marketoloq |
| Qərarın qəbul edilməsi | Hərəkət strategiyasının seçilməsi | Sahibkar, menecer |
| Qəbul edilmiş qərarın icrasına nəzarət | Firmanın xarici və daxili mühitindəki dəyişikliklərin qiymətləndirilməsi; strategiyanın həyata keçirilməsinin gedişatının təhlili; strategiyanın dürüstləşdirilməsi | Marketinq-menecer, marketoloq |

Bu, dempinq qiymətləri - malların maya dəyərindən aşağı qiymətə satılması; rəqabət fəaliyyətinə nəzarətin qoyulması; bazarda hakim mövqedən sui-istifadə; diskriminasiya qiymətləri və ya kommersiya şərtlərinin qoyulması; konkret malların tədarükünün və ya xidmətlərin təqdim edilməsinin rəqib malların istehsalı və ya bölüşdürülməsi üzrə məhdudiyyətlərin qəbul edilməsindən asılılığı; məhsulun satışı zamanı məhdudlaşdırıcı şərtlər və ya tədarükün nə zaman, kimə, hansı miqdarda və hansı şərtlərlə həyata keçirilməsini təyin edən agent razılaşmalarının tətbiqi; hərraclarda gizli sövdələşmələr; yanlış informasiya və reklam və s. ilə ifadə olunur.

Bununla əlaqədar olaraq, sahibkarlığın inkişafı üçün xüsusi əhəmiyyəti sərbəst rəqabət şəraitinin yaradılması kəsb edir ki, onun da əsas əlamətlərinə aşağıdakıları aid etmək lazımdır:

- Rəqabət iştirakçılarının qeyri-məhdud sayı, bazara tam sərbəst giriş və çıxış;
- Maddi, əmək, maliyyə və digər resursların mütləq mobilliyi;
- Hər bir rəqabət iştirakçısının tam məlumatlı olması;
- Sərbəst rəqabətin heç bir iştirakçısı digər iştirakçılar tərəfindən qəbul edilən qərarlara təsir göstərmək iqtidarında deyil.

Rəqabət təsirinin hansı formada təzahür etməsinə uyğun olaraq, firmada bu və ya digər sahibkarlıq qərarları işlənib hazırlanır.

Qərarların qəbul edilməsi – yol verilən çoxluqdan ən çox üstünlük verilən qərarın seçilməsi və ya bu çoxluğun nizamlanması prosesidir.

Beləliklə, Azərbaycanda sahibkarlıq fəaliyyətinin müasir inkişaf mərhələsində mühüm vəzifə müəyyənlik, risk və qeyri-müəyyənlik şəraitində qərarların metodika və metodologiyasının inkişaf etdirilməsidir.

Qərarın qəbul edilməsi metodunun seçilməsi əsasən qərarın özünün xarakteri və spesifikası ilə müəyyən edilir (cədvəl 6).

Sahibkarlıq qərarlarının qəbul edilməsi zamanı xüsusilə kəskin məsələ onların səmərəliliyidir. Qərarların qəbul edilməsinə həsr olunmuş ədəbiyyatın təhlili göstərir ki, bu məsələ birmənalı şərh olunmur.

Əksər hallarda qeyd edilir ki, qərarların qəbul edilməsinin səmərəliliyi *(S)*

$$S = G_ə / X$$

kimi ifadə oluna bilər, burada $G_ə$ – qərarların icrasından əldə edilmiş gəlir, $X$ – qərarın həyata keçirilməsinə çəkilən xərcdir.

Bununla belə, qəbul edilmiş qərarların səmərəlilik göstəricilərindən heç biri onların qəbul edilməsinə rəqabət təsiri mexanizmini əks etdirmir. Buna görə də sahibkarlıqla bağlı qərarların səmərəliliyini qiymətləndirmək üçün belə bir model təklif edirik: sahibkarlıqla bağlı qərarların səmərəliliyinin



daxili və zahiri deyə bölgüsünün aparılması.

Cədvəl 6.

Qərar növlərinin təsnifatı

| Təsnifləşdirmə əlaməti | Qərarların növləri | | |
|---|---|---|---|
| 1. Tədqiq olunan problemin strukturlaşdırma dərəcəsinə görə | Yaxşı strukturlaşdırılmış | Pis strukturlaşdırılmış | Strukturlaşdırılmamış |
| 2. Qərarların icra mərhələlərinin sayına görə | Statik (bir mərhələli) | Dinamik (çoxmərhələli) | |
| 3. Problemin vəziyyəti haqqında məlumatlılıq səviyyəsinə görə | Müəyyənlik şəraitində | Risk şəraitində | Qeyri-müəyyənlik şəraitində |
| 4. Prosesdə iştirak edən şəxslərin sayına görə | Bir iştirakçı | Çoxlu sayda iştirakçı | |
| 5. Məzmununa görə | Strateji | Taktiki | |

Qəbul edilmiş qərarın daxili səmərəliliyini aşağıdakı qaydada təsvir etmək mümkündür. Qərar qəbul edərkən "problemin ifadə edilməsi" blokunda problemin həlli üzrə məqsəd və vəzifələrin qoyuluşu həyata keçirilir. Onları P işarəsi ilə göstərək.

Qərar qəbul edildikdən sonra "qəbul edilmiş qərarın həyata keçirilməsinə nəzarət" blokunda qarşıya qoyulan məqsəd və vəzifələrin həyata keçirilməsini səciyyələndirən son göstəricinin nəticəsi müəyyənləşdirilir. Onu *B* kimi işarələyək.

Belə olduqda qərar qəbul edilməsinin səmərəliliyini

$$S_{dax.} = B/P$$

kimi təqdim etmək mümkündür, həll isə aşağıdakı halda daxilən səmərəli olacaqdır:

$$S_{dax.} > 1.$$

Beləliklə, daxili səmərəlilik firmanın rəqabət təsiri şəraitində müvafiq vəzifələri müəyyənləşdirmək və firmada daxili təşkil edilmə səviyyəsini gerçəkləşdirmək bacarığını səciyyələndirir.

Qəbul edilən qərarların zahiri səmərəliliyi aşağıdakı şəkildə müəyyənləşdiriləcəkdir. İstənilən rəqabət təsiri müəssisənin rəqabətə davamlılıq dərəcəsini dəyişdiyinə görə, qərarların qəbul edilməsinin zahiri səmərəliliyinə məhz bu nöqteyi-nəzərdən baxmaq zəruridir, belə ki, firmanın rəqabətə davamlılığının ayrılmaz göstəricisi müəssisənin fəaliyyətinin zahiri tərəfini səciyyələndirir.

Belə olduqda, qəbul edilən qərarların zahiri səmərəliliyi aşağıdakı düsturla təyin edilir:

$$S_{zah.} = R_1 / R_2$$

Burada $R_1$ – qərar qəbul edildikdən sonra rəqabətə davamlılıq, $R_2$ isə rəqabət təsiri həyata keçirildikdən sonra rəqabətə davamlılıqdır, bu zaman $S_{zah.} > 1$ olduqda, qərar səmərəli sayılacaqdır.

Qərarların qəbul edilməsinin səmərəliliyi məsələsinə baxarkən, bu prosesə təsir edən faktorları aşkar etmək lazımdır ki, burada da əsas olan insan faktoru və firmanın idarə edilməsi modelidir.

Sahibkarlığın səmərəliliyinin qiymətləndirilməsi iqtisadiyyatın ümumiləşdirici səmərəlilik göstəricilərində bu sektorun payının müəyyən edilməsi yolu ilə həyata keçirilə bilər.

Bazar iqtisadiyyatında istehsal, bölgü və istehlak arasında əlaqə və asılılıq bazar vasitəsilə ifadə olunur. Bununla əlaqədar olaraq tarazlılıq, müvazinət istər makro, istərsə də mikro səviyyədə səmərəliliyin ən vacib şərti və göstəricisi kimi çıxış edir. Makrosəviyyədə səmərəliliyə ümumi tələb və ümumi təklifin müvafiq olduğu, mikrosəviyyədə isə səmərəliliyə sahə və müəssisənin məhsuluna tələb və təklifin uyğun olduğu halda nail olunur.

Bu zaman qeyd etmək lazımdır ki, səmərəliliyin artırılması prosesi həmişə eyni dərəcədə onun iqtisadi və sosial tərkib hissələri arasında ziddiyyəti bu və ya digər dərəcədə kəskinləşdirir. Bu ziddiyyət obyektiv və eyni zamanda, nisbi xarakter daşıyır, çünki səmərəliliyin istehsal və sosial göstəricilərinin bir-birini inkar etməsinə baxmayaraq, son nəticədə onların hər ikisi insanların və cəmiyyətin tələbatlarının ödənilməsinə xidmət edir. Belə ki, bu gün istehsalı inkişaf etdirərək və ona investisiya qoyuluşunu artıraraq, cəmiyyət gələcəkdə insanların həyat səviyyəsinin yüksəldilməsi üçün zəruri baza yaradır. Buna baxmayaraq, hər bir an istehsal və istehlak arasında real ziddiyyət mövcuddur ki, bunun da nəzərə alınmaması ciddi sosial-iqtisadi fəsadlar doğura bilər. Bu ziddiyyətin həllində və sosial xərcləri minimuma endirməklə makroiqtisadi səmərəliliyi maksimumlaşdırmaqda mühüm rol gəlirlərin təkrar bölgüsü və tarazlaşdırılması mexanizmində aktiv iştirak etməklə onun neqativ nəticələrini əhəmiyyətli dərəcədə yumşalda biləcək dövlətə məxsusdur. Dövlətin tənzimləmə funksiyasının gücləndirilməsinin aktuallığı hazırkı dünya maliyyə böhranı şəraitində bir daha öz təsdiqini tapdı. Bu cür sosial bazar modeli inkişaf etmiş ölkələrin reallığına kifayət qədər yaxındır, çünki gəlirlərin təkrar bölgüsü və tarazlaşdırılmasının, sosial zəmanətlər və bərabər ilkin şərtlərin yaradılmasının müəyyən həcmi müasir industrial (sənayeyə əsaslanan) və xüsusilə də getdikcə daha çox ixtisaslı və yaradıcı əməyin istifadəsinə əsaslanan postindustrial sistemlərin uğurlu inkişafının zəruri amilləridir.

Sosial bazar iqtisadiyyatının mühüm əlaməti kimi ətraf mühitin yaxşılaşdırılması çıxış edir. Buna görə də sənayecə inkişaf etmiş ölkələrdə son iyirmi-otuz ildə iqtisadiyyatın səmərəliliyini təyin edən göstəricilərdən biri qismində ekologiyaya çəkilən xərclərin həcmi, strukturu və nəticəliliyi çıxış edir.



Təbii mühitin qorunub saxlanması və yaxşılaşdırılmasına çəkilən böyük xərclər, əlbəttə ki, istehsala investisiyaları əhəmiyyətli dərəcədə azaldır ki, bu da öz növbəsində, istehsalın iqtisadi səmərəliliyini zəiflədir. Lakin bazar iqtisadiyyatının səmərəliliyinə belə məhdud yanaşma çətin ki, qanunauyğun olsun. Sosial sahənin inkişafına və ekologiyanın yaxşılaşdırılmasına çəkilən xərclər iqtisadiyyatın insan maraqlarına, onun sağlamlığının möhkəmləndirilməsi və peşə-ixtisas dərəcəsinin yüksəldilməsinə yönləndirilməsini gücləndirir. Bunların hər ikisi əmək məhsuldarlığının artımının həlledici amili kimi çıxış edir.

Beləliklə, sosial yönümlü bazar iqtisadiyyatının səmərəliliyini qiymətləndirərkən iqtisadi səmərəlilik göstəriciləri sosial səmərəlilik göstəriciləri ilə üzvi şəkildə tamamlanmalıdır. Hətta bir sıra hallarda dövlət də, sahibkarlıq da sosial və ekoloji səmərəliliyə üstünlük verməlidir.

Bütövlükdə, səmərəliliyin artırılmasının sırf bazar və sosial-bazar modelini fərqləndirmək lazımdır. Bəzən iqtisadi ədəbiyyatda bu modellərin fərqini onda görürlər ki, birinci modelin mahiyyəti mənfəətin ÜMM və onun dəyərinin bazarda inhisarçı vəziyyət, spekulyasiya və kriminal zənginləşmə metodları ilə təkrar bölüşdürülməsi yolu ilə maksimumlaşdırılmasından, ikincinin mahiyyəti isə mənfəətin müasir menecment və marketinq sahəsində yeni texnologiyaların, elmi nailiyyətlərin tətbiqi hesabına əməyin məhsuldarlığının artırılması vasitəsilə maksimumlaşdırılmasından ibarətdir. Fikrimizcə, bu, heç də belə deyil: bu iki modelin həm ümumi, həm də fərqli xüsusiyyətləri vardır.

Bu modellər üçün ümumi olan xüsusiyyət, fikrimizcə, odur ki, birincisi, hər iki modeldə səmərəliliyin artırılması prosesinin iqtisadi məzmunu – xərcləri (xərc yanaşması) və ya resursları (resurs yanaşması) minimuma endirməklə mənfəəti maksimumlaşdırmaq; ikincisi, hər iki modeldə səmərəliliyin artırılmasının əsas amilinin elmi-texniki tərəqqinin nailiyyətlərindən (ən yeni texnika, qabaqcıl texnologiyalar, əmək və istehsalın təşkilinin müasir formaları və s.) istifadə etməklə, əməyin məhsuldarlığının artırılması; üçüncüsü isə səmərəliliyin artırılmasının hər iki modeli son nəticədə istehlakçıların tələbatının mümkün qədər tam ödənilməsinə aparıb çıxarır.

Bütün yuxarıda deyilənlər tam mənası ilə istehsal sahibkarlığının səmərəliliyinin artırılması modelinə də aiddir. Sahibkarlıq fəaliyyətinin çoxcəhətliliyi sahibkarlığın səmərəlilik məzmununun da çoxaspektliliyini

şərtləndirir, onun tərkib hissələrindən hər biri (iqtisadi və sosial) müstəqil tədqiqat tələb edir.

Sahibkarlığın səmərəliliyinin artırılmasında bazarın tədqiqi xüsusi rol oynayır. Bu tədqiqatın nəticələri sahibkarlıq strukturunun istər strategiyası, istərsə də fəaliyyət taktikasının işlənib hazırlanmasının əsasını təşkil edir. Sahibkarlıq strukturunun bazardakı vəziyyətinin dayanıqlılığı, əldə etdiyi mənfəətin həcmi əsasən onun peşəkarcasına həyata keçirilməsindən asılıdır. Bazar vəziyyətinin qiymətləndirilməsində səhvlər ucbatından hətta çox iri firmalar belə bəzən çətin vəziyyətə düşə bilər.

Sahibkarlığın səmərəliliyinin yüksəldilməsinin müasir modelinin başlıca fərqləndirici xüsusiyyəti strateji məqsədqoyma sisteminin dəyişməsidir. Bugünkü rəqabət mübarizəsində qalib gəlmək, məhsulun çox və ya az dərəcədə uzunmüddətli rəqabət qabiliyyətini təmin etmək və sahibkarlıq risklərini azaltmaq üçün artıq alıcı tələbini öyrənmək, proqnozlaşdırmaq və nəzərə almaq kifayət etmir. Tələbatları aşkara çıxarmaq və formalaşdırmaq, yəni mahiyyətcə özünün bazarını və alıcısını "yaratmaq" lazımdır.

Rəqabət mübarizəsi çərçivəsində sahibkarlıq fəaliyyətinin effektiv idarəetmə mexanizmi yalnız müəssisədə innovasiya siyasətinin aparılması zamanı formalaşdırıla bilər, çünki innovasiyalar rəqabət mübarizəsinin ən güclü alətidir.

Qeyd etmək lazımdır ki, hücum strategiyasının istifadəsi həyat tsiklinin başlanğıc (yaranma) mərhələsində olan məhsulun innovasiyasını nəzərdə tutur.

Tədqiqat nəticəsində tərəfimizdən innovasiya strategiyasının həyata keçirilməsinin aşağıdakı əsas şərtləri müəyyən edilmişdir:

1) Təşkilatın innovasiya məqsədlərinə, innovasiya strategiyasının həyata keçirilməsinin işlənib hazırlanmış xüsusi idarəetmə proqramına uyğun idarəetmə strukturunun mövcud olması, çünki innovasiyaların həyata keçirilməsinin effektivliyi əhəmiyyətli dərəcədə onların tətbiqinin idarəetməsinin necə olmasından asılıdır;

2) İnnovasiyaların həyata keçirilməsi prosesinə təşkilatın bütün istehsal və maliyyə potensialının cəlb olunması;

3) Mal satışında bazarda yerin olması;

4) İşçi heyətin innovasiyalar və onların gerçəkləşdirilməsinə yönəlmiş idarəetmə hazırlığı;

5) Yenilikləri qəbul etməyə qadir işçi heyətin olması;

6) İnnovasiya strategiyasının həyata keçirilməsinin bütün mərhələlərində yeniliklərə müqavimətin olmaması;

7) İnnovasiyaların idarə edilməsinin təşkilində işçi heyətin ruh birliyini



təmin edən müəyyən işgüzar mədəniyyətin formalaşdırılması;

8) İnnovasiya məqsədlərinə qısa müddətdə yüksək səmərəliliklə nail olmağa yönəlmiş və insanlara praktik rəhbərlik etmək təcrübəsinə malik lider-menecerin olması.

Sahibkarlığın səmərəliliyinin artırılmasının sosial-bazar modelinin gerçəkləşdirilməsi sahibkarlar, dövlət və bütövlükdə cəmiyyətin maraqlarının harmonizasiyası mexanizminin formalaşması ilə bağlı çox vacib və eyni zamanda, mürəkkəb bir problemin həllini nəzərdə tutur.

Maraqların harmonizasiyası mexanizminin əsasında dövlət və sahibkarların qarşılıqlı faydalı əməkdaşlığı dayanmalıdır. Dövlət yüksək səviyyədə inkişaf etmiş, ölkənin çiçəklənməsini təmin etməyə və dövləti möhkəmləndirməyə qadir olan sivil istehsal sahibkarlığına, sahibkarlar isə sahibkarlıq strukturlarının effektiv fəaliyyəti və sahibkarlıq qabiliyyətlərinin tam gerçəkləşdirilməsi üçün əlverişli makromühit yaratmağa, sahibkarların maraqlarını və azad sahibkarlıq fəaliyyətini müdafiə etməyə qadir güclü dövlətə ehtiyac duyur.

Dövlət və qeyri-dövlət idarəetmə subyektlərinin maraqlarının və fəaliyyətinin əlaqələndirilməsi mexanizmi olmaq etibarilə indikativ planlaşdırma inkişaf etmiş ölkələrdə sivil bazar iqtisadiyyatının inkişafında böyük rol oynayır. Azərbaycanda isə dövlət plan sistemi kimi indikativ planlaşdırma yetərincə geniş yayılmamışdır. Hazırda yalnız indikativ planlaşdırma sisteminin ayrı-ayrı elementlərindən istifadə olunur. Halbuki planlaşdırmanın keyfiyyəti və obyektivliyi həlledici dərəcədə maraqların razılaşdırılması mexanizminin səmərəliliyini müəyyən edir.

İstehsal sahibkarlığının makrosəviyyədə inkişafının strateji planlaşdırılmasına, fikrimizcə, aşağıdakı proseslər daxil olmalıdır:

-dövlətin, cəmiyyətin və sahibkarlıq strukturlarının maraqlarını nəzərə almaqla, istehsal sahibkarlığının uzunmüddətli perspektivdə dövlət inkişaf strategiyasının əsaslandırılması;

-cəmiyyətin, dövlətin və sahibkarlıq strukturlarının maraqlarının razılaşdırılması ilə bağlı əsas strateji mövqelərin təhlili;

-sahibkarlıq mühitinin dəyişməsinə əhəmiyyətli təsir göstərə biləcək daxili (milli) və xarici (beynəlxalq) amillərin tədqiqi;

-dövlətin bəzi sahibkarlıq fəaliyyəti növlərinin stimullaşdırılması və digərlərinin inkişafının ləngidilməsi ilə bağlı hərəkətlərinin əsaslandırılması.

Bu zaman strateji planlaşdırmanın əsas prinsipləri aşağıdakılar ola bilər:

- perspektivdə (ortamüddətli və uzunmüddətli) cəmiyyətin, dövlətin və sahibkarların maraqlarının yaxınlaşdırılmasına kompleks, sistemli yanaşmanın istifadəsini nəzərdə tutan perspektiv maraqların vəhdəti;

- strateji planlaşdırma prosesində sahibkarlıq və dövlət nümayəndələrinin sivil qarşılıqlı əlaqəsi;

- planlaşdırma prosesinin və strateji planın aktuallaşdırılmasını (burada aktuallaşdırma dedikdə, planlaşdırma prosesinin və strateji planın dəyişən şərtlərə uyğun olaraq dürüstləşdirilməsi başa düşülməlidir) nəzərdə tutan çeviklik;

- planlaşdırılan hərəkətlərin sahibkarlığın real imkanlara və fəaliyyət şəraitinə uyğunluğunun təmin edilməsi üçün onların hərtərəfli əsaslandırılmasını tələb edən reallıq;

- strateji planın ehtimal olunan dəyişiklikləri haqqında vaxtında məlumatlandırılma.

Müasir şəraitdə sahibkarlıq strukturlarının cari maraqları mənfəətin istənilən yolla maksimumlaşdırılmasından ibarətdir. Ən mənfəətli sahələr maliyyə və ticarət olduğundan, Azərbaycanda sahibkarlıq kapitalının çox hissəsi bura yönəlir. Lakin yaxşı məlumdur ki, dövriyyə sahəsində yalnız dəyər və mənfəətin təkrar bölgüsü baş verir. Bəzilərini zənginləşdirərək və digərlərini müflisləşdirərək, kapitalın bir cibdən digərinə qoyulması, təkrar bölgüsü milli sərvəti artırmır. Kapital yalnız istehsal sahəsində yaradıcı funksiyanı yerinə yetirir. İnzibati-amirlik metodları ilə kapitalı dövriyyə sahəsindən və ya "kölgə iqtisadiyyatı"ndan istehsal sahəsinə qayıtmağa məcbur etmək mümkün deyil. Bir çıxış yolu vardır – sahibkarların, dövlətin və cəmiyyətin qısamüddətli maraqlarının kəsişmə (yaxınlaşma) nöqtələrini axtarıb tapmaq.

Bu nöqtələri, fikrimizcə, istehsal sahibkarlığının inkişafı proqramının "resurs təminatı" blokunun formalaşdırılması zamanı, maliyyə mənbələri və müxtəlif təsərrüfat subyektlərinin ehtiyatlarının qarşılıqlı sərfəli şərtlərlə səfərbər edilməsi yollarının axtarılması mərhələsində tapmaq daha realdır.

**Dissertasiya işinin sonunda** tədqiqat zamanı ümumiləşdirmələr aparılaraq nəzəri və təcrübi əhəmiyyət kəsb edən nəticələr alınmış, konkret təkliflər irəli sürülmüşdür.

Dissertasiya işinin mövzusu üzrə aşağıdakı elmi əsərlər dərc edilmişdir:

1.Механизмы стратегического управления предпринимательской деятельности. Az.ETKTİvə Tİ. Bakı, 2005. - 7,8 ç.v.

2. Организационно-экономические основы развития и повышения эффективности предпринимательства. Центр полиграфии и издательства «Нурлар». Баку, 2006. - 7,8 ç.v.

3. Sahibkarlıq fəaliyyətində maliyyə idarəetmə sisteminin təşkili xüsusiyyətləri. "İqtisadiyyat və audit" jurnalı, №4 (58), 2005. - 0,2 ç.v.

4. Из опыта ЕС по государственному регулированию и поддержке предпринимательства. "İqtisadiyyat və audit" jurnalı, №11 (89), 2007. - 0,3 ç.v.

5. Возможные пути использования опыта ЕС в совершенствовании регулирования и поддержки предпринимательства в Азербайджане. "İqtisadiyyat və audit" jurnalı, №12 (90) dekabr, 2007. - 0,3 ç.v.

6. Особенности процесса стратегического управления на предприятиях малого предпринимательства. Azərbaycan Elmi-Tədqiqat Kənd təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu, Elmi əsərlər,№1,2008.-0,5 ç.v.

7. Экономическая эффективность предпринимательства. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu, Elmi əsərlər, №4, 2008. - 0,2 ç.v.

8. Возрастания роли социальной эффективности предпринимательства. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu, Elmi əsərlər, №5, 2008. - 0,4 ç.v.

9. Конкурентные стратегии предпринимательства в современных условиях. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. Elmi əsərlər, № 1, 2009. - 0,5 ç.v.

10. Система регулирования и содействия развитию предпринимательства в развитых странах. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. Elmi əsərlər, № 2, 2009. - 0,3 ç.v.

11. О механизме конкурентного воздействия на предпринимательские решения. Аграрно-экономическая наука и технологии. Грузия, № 2 (3), 2009. - 0,3 ç.v.

12. Вопросы конкурентного воздействия на предпринимательские решения и их эффективность. Международный научный журнал. Москва, № 2, 2010. - 0,5 ç.v.

13. Возрастание социальной эффективности предпринимательства. "Aqrar elm" jurnalı, № 3-4, 2009. - 0.2 ç.v.

14. Гармонизация интересов как фактор повышения эффективности предпринимательства. Аграрно-экономическая наука и технологии. № 3, 2009. - 0,2 ç.v.

15. Роль предпринимательства в развитии национальной экономики. Azərbaycan Elmi-Tədqiqat Kənd təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu, Elmi əsərlər, №3, 2009. - 0,2 ç.v.

16. Нормативно-правовое и информационно обеспечение предпринимательства. "Aqrar elm" jurnalı, № 5, 2009. - 0,2 ç.v.

17. Сущность механизма стратегического управления на предприятиях малого бизнеса. Международный научный журнал. Москва, №3, 2009. - 0,4 ç.v.

18. Новые подходы к проблеме повышения эффективности предпринимательства. "İqtisadiyyat və audit" jurnalı, №3-5 (105-107), mart-may, 2009. - 0,3 ç.v.

19. Особенности становления предпринимательства в Азербайджане. Экономика/финансы/исследования. Казахыстан, №2 (14), 2009. - 0,4 ç.v.

20. Предпринимательство и его роль в экономике. "Экономика и социология" научно-теоретический журнал. Кишинев, №1, 2009. - 0,6 ç.v.

21. Роль государства в формировании предпринимательства. Azərbaycan Milli Elmi Elmlər Akademiyasının xəbərləri, İqtisadiyyat elmləri seriyası, №1, 2009. - 0,4 ç.v.

22. Налоговая политика – важный фактор устойчивого функционирования предпринимательских структур. Azərbaycan Elmi-Tədqiqat Kənd təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. Elmi əsərlər, №4, 2009. - 0,4 ç.v.

23. Информационное обеспечение предпринимательства. "Azərbaycan Respublikası əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatının iqtisadi problemləri" respublika elmi-praktik konfransının materialları. Bakı, 2009. - 0,2 ç.v.

24. Новые подходы к проблеме повышения эффективности предпринимательства. "Böhrandan sonrakı iqtisadiyyatda maliyyə resurslarının səmərəli idarə olunmasında şəffaflığın rolu" elmi-praktik konfransın materialları. Bakı, 2009. - 0,2 ç.v.

25. Механизм конкурентного воздействия на предпринимательские решения в аграрном секторе и их эффективность. "Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri" mövzusunda beynəlxalq elmi- praktik konfransın materialları və tezisləri. Bakı, 2011. - 0,2 ç.v.

26. Вопросы моделирования предпринимательской деятельности. Международный технико-экономическоий журнал, №3, 2011. - 0,2 ç.v.

27. О моделировании предпринимательской деятельности в аграрном секторе. "Aqrar iqtisadiyyat: müstəqilliyin 20 ilində" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2011. - 0,2 ç.v.

28. Важный фактор устойчивости предпринимательских структур. "Наука и инновации", № 12 (70), 2008. - 0,2 ç.v.

29. Sahibkarlığın normativ-hüquqi və informasiya təminatı. "İqtisadiyyat və həyat" jurnalı, № 5, 2008. - 0,2 ç.v.



## РЕЗЮМЕ

**Аяз Исмаил оглы Оруджев**

**Организационно-экономические проблемы развития и повышения эффективности предпринимательства в Азербайджанской Республике**

Диссертационная работа состоит из введения, пяти глав, заключения и списка литературы.

В введении обоснована актуальность темы, определены цели и задачи, объект и предмет исследования, изложена научная новизна и практическое значение работы.

Ы глава называется «Предпринимательство в Азербайджане: этапы ее формирования и роль в развитии национальной экономики». Здесь рассматривается содержание категорий «предпринимательство», «малое предпринимательство», особенности и направления развития организационно-экономического механизма малого предпринимательства в рыночной модели хозяйствования, обобщаются особенности стимулирования малого бизнеса в зарубежных странах и отечественный опыт обеспечения мониторинга производственной деятельности малых предприятий. Так же исследуется особенности формирования малого бизнеса в Азербайджане и его роль в рыночной системе. Здесь, так же, произведен анализ и дана обобщающая оценка предпринимательской активности в экономической системе Азербайджана в период делового цикла 2000-2010 гг.

П глава - «Система государственного регулирования и поддержки развития предпринимательства» посвящена обоснованию основных направлений государственного и муниципального регулирования предпринимательства, предложена методика разработки целевых программ и проектов поддержки малого и среднего производственного предпринимательства, а также приоритетным направлениям совершенствования государственной поддержки развития малого предпринимательства в Республике. Здесь особое внимание уделяется на финансовое обеспечение предпринимательства и на опыт Национального Фонда поддержки предпринимательства.

Ш глава - «Организационно-экономические и социально-правовые проблемы развития предпринимательства» посвящена факторам, влияющим на выбор организационно-правовых форм предприниматель-

ской деятельности. Принимая решение о выборе организационно-правовой формы, предприниматель, определяет требуемый уровень и объем возможных прав и обязанностей в зависимости от профиля и содержание будущей предпринимательской деятельности, возможного круга партнеров, существующего законодательства.

ЫВ глава называется «Механизмы стратегического управления предприятия малого предпринимательства в Азербайджане». В этой главе обращено внимание на поиски путей повышения эффективности предпринимательства через механизм совершенствования управленческих функций. Здесь обоснованы механизмы оптимизации стратегического управления, учет основных направлений государственной поддержки, структура действующего финансово-кредитного механизма, мировые тренды инновационного развития малого предпринимательства, предложены внутренние резервы повышения эффективности функционирования малого предприятия, включая инновационную ориентацию малого бизнеса и философии менеджмента.

В глава - «Концептуальные основы социально-рыночной модели повышения эффективности предпринимательства» посвящена анализу системы регулирования развития предпринимательства и комплексу показателей ее эффективности. Здесь так же рассмотрены особенности применения программно-целевого подхода и методологии к стратегическому планированию развития регионального предпринимательства, разработки и реализации управленческих решений, предложена социально-рыночная модель системы регулирования развития предпринимательства, даны предложения поиска лучших предпринимательских решений в системе предпринимательства. Здесь исследуется гармония интересов, как важный фактор повышения эффективности предпринимательства.

В заключении обобщены результаты диссертационного исследования, сформулированы основные выводы, предложены рекомендации по совершенствованию регулирования развития предпринимательства в Азербайджанской Республике.





Summary

**Ayaz Ismayil Orujov**

**Organizational-economic problems of the development and efficiency encreasement of entrepreneurship in Azerbaijan Republic**

The dissertation work consists of introduction, V chapters, conclusion and the list of used literature.

The actually of the theme is based on, the aim and the task, object and subject of the research are determined, the scientific novelty and practical importance of the work are expounded in the introduction.

The I chapter deals with “Entrepreneurship in Azerbaijan” its formation stage and role in the development of national economy”. The content of the category of “entrepreneurship”, “small entrepreneurship” peculiarities and the direction of the development of organizational-economic mechanism of small entrepreneurship in market management model, the peculiarities of stimulation of small business of foreign countries and domestic practice of provisional monitoring of productional activity of small enterprises. The formation of small business in Azerbaijan and its role in market system are also researched. The analysis have been carried out and general estimation of entrepreneurship activity in economic system of Azerbaijan in 2000-2010 business cycle period.

The II chapter “State regulation system and support of entrepreneurship development” is dedicated to the substantiation of main directions of government and municipality regulation of entrepreneurship, working out methods of principal programs and projects are suggested, support of small and medium productional entrepreneurship, also priority directions of improvement of small entrepreneurship in the Republic are supported.

The special attention is given to the financial provision of entrepreneurship and experience of National Fund of entrepreneurship support.

III chapter – “Organizational economical and social-legislative problems of development of entrepreneurship” is devoted to the factors, influencing the choice of the organizational-legislative forms of entrepreneurial activity. Making a decision about the choice of organizational –legislative form, an entrepreneur, defines the demanded level and the scale of possible rights and duties depending on the profile and the contents of the future entrepreneurial activity, possible round of partners existing legislation.

IV chapter is called “Mechanisms of strategical management of small enterprises in Azerbaijan. In this chapter attention is paid to the search of the ways of raising efficiency of entrepreneurship through the mechanism of improving of managerial functions.

The mechanisms of the optimization of the strategical management, accounting of the basis directions of the state support, the structure of the existing (operating) financial-credit mechanisms, the world trends of the innovational development of the small enterprises are based here, inner reserves of raising the efficiency of functioning of the small enterprise, including the innovational orientation of small business and philosophy of management are offered.

V chapter – "Conceptual bases of the social-marketing model of raising of efficiency of entrepreneurship is devoted to the analysis of the system of regulation of the development of entrepreneurship and the complex of the indicator of its efficiency. The features of the applying of the program-aiming treatment and methodology to the strategical planning of the development of the regional entrepreneurship, carrying out and realization of managerial decisions are also considered here, the social-marketing model of the system of the regulation of the development of entrepreneurship is offered, the offers of the search of the best entrepreneurial decisions in the system of the entrepreneurship are given here.

The harmony of interests are researched here as the important factor of the raising of efficiency of entrepreneurship.

In conclusion the results of the dissertational research are generalized, the basic results are formulated, recommendations on improving of the regulation of the development of entrepreneurship are offered in the Azerbaijan Republic.





Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 196, tiraj 100

**Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi**

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ
УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**АЯЗ ИСМАИЛ оглы ОРУДЖЕВ**

# Организационно-экономические проблемы развития и повышения эффективности предпринимательства В Азербайджанской республики

**5312.01 – Экономика отрасли**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание научной степени
доктора экономических наук

**Гянджа – 2013**